

## "Sülhməramlıların müvəqqəti yerləşdiyi əraziyə hərbi texnikalar daşınır"

*Azərbaycan Respublikası Təhlükəsizlik Şurası Katibinin Xidmətinin təşkilatçılığı ilə "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfrans keçirilib. Təhlükəsizlik Şurası Katibinin Xidmətindən "Unikal"a verilən xəbərə görə, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyində Azərbaycan Respublikasının Təhlükəsizlik...*

Səh.3

# UNİKAL

№44 (2129) 25 noyabr 2022-ci il
Qiyməti 50 qəpik
Qurucusu: Asəf Rzayev
www.unikal.az
unikal-1@mail.ru



# Ceyhun Bayramov Ermənistana xəbərdarlıq etdi

*Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib.*

*"Unikal" xəbər verir ki, nazir jurnalistlərə açıqlamasında Ermənistanın Laçın dəhlizindən razılaşmalara zidd formada istifadə etdiyini bildirib.*

*"Üçtərəfli bəyanata əsasən dəhlizin prinsipləri və istiqamətləri var. Ancaq dəhliz buna zidd olaraq istifadə edilir. Buna son qoyulmalıdır. Azərbaycan tərəfi bütün lazımi addımları atacaq. Bununla bağlı həm beynəlxalq müstəvidə, həm də digər tərəfdaşlarla danışıqlarımız davam edəcək", - deyə XİN rəhbəri vurğulayıb.*

Səh.2

Səh.9



# Ermənistan Laçın yolundan qeyri-qanuni istifadə edir

## "Partiyaları cəmiyyət özü saf-çürük etməlidir"



*Böyük Quruluş Partiyasının başqanı, Milli Məclisin deputatı Fazil Mustafa "Unikal"a müsahibə verib. O, "Siyasi partiyalar haqqında" qanun layihəsinə təklif edilən dəyişikliklərdən, bu layihənin ilkin variantında nəzərdə tutulan bir sıra təkliflərin ləğv edilməsindən, Azərbaycanda yenidən proporsional seçki sisteminin...*

Səh.4

## Qarabağda təhsilin müasir dövrü



*Bir neçə gün öncə Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq edib. Bu Proqramda işğaldan azad edilmiş torpaqlarımızda aparılacaq böyük quruculuq işləri öz əksini tapıb. Tədbirlər Planına əsasən, tərtib edilmiş planlar...*

Səh.11

## Cavanşir Feyziyevlə bağlı yeni sensasion iddia



*Millət vəkili Cavanşir Feyziyevə məxsus "Avromed Company" QSC barəsində protokol tərtib edilib. Şirkət rəhbərliyi iqtisadi fəaliyyət qaydalarını pozmaqda təqsirli bilinir (Qafqazinfo). Şirkətə İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə protokol yazılıb. Müddəanın tələblərinə əsasən...*

Səh.5

# Azərbaycanlı müğənnilərin "Youtube" qazancı: 42 min AZN... - SİYAHI



***Daim gündəmdən düşməyən yerli məşhurların özləri qədər qazancları da hər kəsin maraq dairəsindədir. Bu dəfə sosial şəbəkələrdə aktiv olan müğənnilərin yutub gəlirlərini araşdırdıq. Onların bu platfromadan qazancları təxminən 510-42 000 AZN aralığındadır.***

"Unikal" baku.ws-ə istinadən həmin araşdırmanı oxuculara təqdim edirik:

Yutubda klipləri ən çox izlənilən məşhurlar arasında müğənni Üzeyir Mehdizadə ilk yerdədir. Onun şəxsi yutub kanalının 1 milyon 980 min abunəçisi mövcuddur. İfaçının 2012-ci ildə yaratdığı platformadan ən çox gəliri 25 000 dollar (42 min 500) olub. Bu barədə Üzeyir Mehdizadənin prodüseri İlqar bəy məlumat verib:

"Biz ümumiyyətlə Türkiyə musiqi şirkətləri ilə işləyirik. Üzeyir bəyin yutubdan gəlirləri hər ay fərqli olur. Bu məbləğ aylıq olaraq minimum 500 dolardan (850 AZN) başlayaraq 5 000 dollara (8 500 AZN) qədər artır. Bu günə qədər yutubdan ən çox qazandığı pul isə bundan 4-5 dəfə çox yəni, 20-25 000 dollar (34 000-42 500 AZN) olub".

Müğənni Nahidə Babaşlının yutub kanalı 2017-ci ildən fəaliyyət göstərir. Buna baxmayaraq ifaçının 1 milyon 430 min izləyicisi var. Onun şəxsi yutub platformasında ən çox qazancı 10 000 AZN olub. Bu haqda ifaçı özü bildirib:

"Yutubda qazanc stabil olmur. Gəlir bəzən çox, bəzən isə az olur. Elə ay olub ki, 10 min manat qazanc əldə etmişəm".

Müğənni Talıb Talenin yutubda 1 milyon 260 min abunəçisi var. Mahnılarının böyük əksəriyyətini özü bəstələyən sənətçinin klipləri də yetəri qədər baxış sayı yığıb. Talıb Tale açıqlamalarından birində yutubdan qazandığı məbləğə ev aldığını bəyan etmişdi:

"Ay ərzində yutubda baxış sayına görə 2 min dollar qazanıram. Sizə orta rəqəmi açıqlayıram. Ən çox ayda 4 700 dollar (7 990 AZN) pul götürmüşəm. Bu, 2017-ci ildə baş verib. Yutubdan yığılan pulla özümə ev aldım".

Müğənni Şəbnəm Tovuzlunun yutub kanalı 2016-cı ildə açılıb. Sənətçinin 1 milyon 160 min izləyicisi var. Tovuzlu yutub kanalından hər ay 6 000 dollara (10 200 AZN) qədər qazanc əldə etdiyini deyib:

"Yutubdan qazandığım məbləği açıqlamaq mənim haqqımdır. Bu sənətə illərimi vermişəm. Yutub kanalımdan hər ay 5 800-6 000 dollar (9 860- 10 200 AZN) pul qazanıram".

Müğənni Damlanın yutubda 593 min abunəçisi var. Sənətçi bu günə qədər platformadan ən yüksək gəlir olaraq 4000 dollar (6 800 AZN) əldə edib. Bu barədə ifaçının prodüseri Şamil İbrahimov bildirib:

"Hələ ki, sonuncu klipin gəlirini götürməmişik. Damla xanımın yutubdan aylıq gəliri 2000 dollardır(3 400 AZN). Ən yüksək qazancı isə 4 000 dollar (6 800 AZN) olub".

Müğənni Vəfa Şərifovanın yutubda təxminən yarım milyona yaxın, yəni 499 min abunəçisi mövcuddur. Onun bu platformadan maksimum aylıq gəliri 12 000 AZN-ə yaxın olub. Bu barədə sənətçi özü məlumat verib:

"Əslində hər ay fərqli olur. Məsələn: elə ay olur ki, biz klip çəkdirmirik. Təqdim etdiyim mahnı da vacibdir. Gərək çox dinlənilsin. "Arkadaş" mahnısından 6-7 min dollar (10 min 200 AZN-11 min 900 AZN) gəlir əldə etdim".

Müğənni Elnar Xəlilovun yutubda 62 min 200 abunəçisi var. Sənətçinin abunəçisi az olmasına baxmayaraq, o bu platformadan müəyyən məbləğdə gəlir əldə edir. Xəlilov yutubdan aylıq minimum 510 AZN qazandığını bildirib:

"Gəlirim adətən yutubdan olur. Bu da aydın məsələdir ki, biz orada öz mahnılarımızı yerləşdiririk. Oradan qazandığım gəlir stabil deyil. Dəyişkəndir. Paylaşdığım mahnıya görə gəlir də fərqli olur. Bu qiymət 300-1 000 dollar (təxminən 510-1 700 AZN) aralığında dəyişir".



## "Qurdlular gözüyaşlı" - Namiq kimə söz atdı?

***Meyxanaçı Namiq Qaraçuxurlu mahnısının Qətərdə səsləndirilməsi ilə bağlı daha bir paylaşım edib.***

Ifaçı ad çəkmədən sənət adamlarına söz atıb. "Sənətə gəldiyim gündən "haqqımda bunu yaz" deyə, heç kimdən xahiş etməmişəm. Allahın köməkliyi, adıma uğur yazılmasından narahat olmayan tanıdığım, tanımadığım insanların hesabına bu işlər olub. Qurdlular gözüyaşlı" deyə, meyxanaçı bildirib.

Namiq "Mocüzə" Qətərdə" şərhinin birmənalı qarşılanmadığını vurğulayıb. O, yazdığı sözlərə belə aydınlıq gətirib: "Yarım saniyə fikirləşməyə həvəsi olmayanların nəzərinə: heç bir möcüzə baş verməyib. Mahnının adı "Möcüzə"dir".

## "Pulum gedir, "sağ ol" deyən da yoxdur" - Elnarə Abdullayeva

***Əməkdar artist Elnarə Abdullayeva bir də heç vaxt konsert verməyəcəyini açıqlayıb.***



"Unikal" olay-a istinadən xəbər verir ki, bu haqda sənətçi "Söhbət var" verilişinə qonaq olarkən deyib. Elnarə konsert üçün xərclənən pulu hədər hesab edib.

"Adama deyərlər ki, ay başı xarab, böyük konsertlər etməkdənsə, iki gündən bir yalançı mahnı yaz, pulunu qazan. Neynirsən, o boyda pulu sənətə xərcləyib başını xarab edirsən? Moskvada verdiyim "Qələbə" konsertinin zülmü hələ də başımdan çıxmayıb. Bəsdir konsertlər verdim. Pulum gedir, amma "sağ ol" deyən də yoxdur. And içmişəm ki, daha konsert verməyəcəm", - deyə, Abdullayeva qeyd edib.



## Zakir Həsənov ordudakı islahatlardan danışdı

***Xəbər verdiyimiz kimi, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibinin Xidmətinin təşkilatçılığı ilə "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfrans öz işinə başlayıb.***

"Unikal"ın məlumatına görə, konfransda çıxış edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkə rəhbərinin tapşırığı əsasında, Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun hərbi potensialının artırılması yönümündə həyata keçirilən islahatlardan danışıb.

Bundan başqa, nazir yeni hərbi birliklərin yaradılması, qarşıya qoyulmuş vəzifələrin operativ və çevik yerinə yetirilməsi üçün silahlı qüvvələrimizin şəxsi heyətinin hərbi təhsil səviyyəsinin yüksəldilməsi, müasir hərbi texnika və avadanlıqlarla təchiz olunması barədə məlumat verib.

## "Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu artır" - Deputat

***"Strateji münasibətlərimizin son illər daha da inkişaf etdiyi Serbiya ilə ticarət dövriyyəmiz son 4 ildə 2 dəfə yaxın artaraq 9.2 milyon dollara yüksəlib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Serbiya tərəfinin Azərbaycan Prezidentinin səfərinə xüsusi önəm nümayiş etdirməsini xüsusi qeyd etmək lazımdır:

"Dövlət başçımızı Serbiya Prezidenti Aleksandar Vuçiçin şəxsən qarşılaması və yola salması bu diqqətin xüsusi nümunəsi kimi xarakterizə olunmalıdır. Azərbaycan ilə Serbiya arasında iqtisadi əlaqələrin yalnız enerji deyil, eyni zamanda qeyri-neft sektoru üzrə inkişaf etməsi potensialı kifayət qədər böyükdür. Bu baxımdan, səfər zamanı keçirilən görüşlər, müzakirələr və razılaşmalar məhz bu potensialdan daha yaxından istifadəyə imkan yaradacaq. Azərbaycan Prezidentinin son səfəri iki ölkə arasındakı iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək. Serbiya ilə Azərbaycan arasında mavi qaz nəqli sahəsində də əməkdaşlığın inkişaf edəcəyi gözlənilir. Yunanıstan-Bolqarıstan İnternkonnektoru istifadəyə verildikdən sonra Serbiyanın Azərbaycan qazını idxal etmək imkanları genişlənib".

Deputat qeyd edib ki, Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində reallaşması mümkün olan Cənubi Qaz Dəhlizinin yeni elementinə çevrilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorundan (IGB) mavi qaz ala biləcək ölkələrdən biri də məhz Serbiyadır:"İGB-nin ötürmə qabiliyyətinin 3,5 milyard kubmetrdən 5,5 milyard kubmetrədək artırılması isə Macarıstan, Serbiya, Slovakiya, Rumıniya, Şimali Makedoniya kimi ölkələrin də Azərbaycan qazını almasına imkan yarada bilər. Beləliklə, ölkəmizin Mərkəzi və Şərqi Avropanın enerji təhlükəsizliyinin formalaşmasındakı rolu daha da artmaqdadır. Bu Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirir".

# Tağı Əhmədovun 2 milyon manata satışa çıxardığı yaqut daşı barədə fakt

## Doğrudur, ortada bir zərərçəkən var, lakin istənilən halda bu sabiq "metro şefi" deyil...

***Yola salmaq üzrə olduğumuz həftə xəbər lentlərini "bəzəyən" ən maraqlı məlumatlardan biri belə idi ki... "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq rəisi Tağı Əhmədovun mənimsənilən 2 milyon manatının ödənilməsi üçün yaqut daşı satılacaq!***

Bildirilirdi ki, bu barədə Tağı Əhmədovun 2 milyon manatını mənimsəməkdə ittiham olunan iş adamı Səadət Xəlilovanın məhkəməsinin yekununda qərar verilib.Məhkəmə qərarında göstərilib ki, cinayət işi üzrə maddi sübut olan, saxlanılmasından ötrü Daxili İşlər Nazirliyinin Maliyyə Plan İdarəsinə təhvil verilmiş 19.25 qram kütləli 96.25 karat ölçüdə 1 ədəd yaşıl rəngli, şəffaf yaqut daşı satılaraq, Tağı Əhmədova dəymiş zərərin ödənilməsinə yönəldilsin. O da məlum olub ki, daşın qiyməti barədə respublikanın ticarət şəbəkələrində, zərgərlik məmulatlarının satışı mağazalarında və eləcə də mərkəzdə məlumat olmadığından məhkəmə-əmtəəşünas ekspertinin qarşısında qoyulmuş suala cavab vermək mümkün olmayıb.

Məlumat üçün deyək ki, ən nadir yaqut daşının 1 karatı dünya bazarında 100 639 min dollara satılır.

Xatırladaq ki, ittihama əsasən, Səadət Xəlilov, Qulu Muxtarov və Sahil Abuşov Soltan Əliyevin 2 milyon manatını ələ keçirib. Onlara Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Səadət Xəlilov 9 il, digər təqsirləndirilən şəxslər Qulu Muxtarov 8 il 6 ay, Sahil Abuşov isə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Cinayət işi üzrə Soltan Əliyev zərərçəkmiş qismində tanınsa da, Səadət Xəlilov 2 milyon manatı "Bakı Metropoliteni"nin sabiq rəisi Tağı Əhmədovun onlara faizlə verdiyini deyib.

Əslində absurd vəziyyətdir!

Niyə?

Çox sadə səbəbdən: bir halda ki, Tağı müəllim sələmlə (faizə!) pul verirmiş və bunun üstü tam təsadüfən, bir neçə nəfərin sabiq "metro şefi"nə "atdığı" ortaya çıxarkən açılıb, o zaman bununla bağlı cinayət işi bir qədər genişləndirilməli idi.

Bir az da dəqiqləşdirək: aydınlaşdırılmalı idi ki, karyerası boyunca yalnız məmur olaraq çalışan, hər hansı biznesinin olduğunu inkar edən, xüsusilə də 1998-2014-cü illərdə "Bakı Metropoliteni" QSC-nin rəisi postunu tutan və maaşla dolanan bir adamda bu qədər pul hardandır?

Aydınlaşdırılmalı idi ki, Tağı müəllimin sələmə verdiyi pullarla onun Bakı metrosunun rəisi olduğu dönəmdə korrupsiya və rüşvətlə məşğul olduğuna dair KİV səhifələrindən düşməyən iddia və ittihamların bir əlaqəsi varmı? Əgər elədirsə, deməli, ortada bir zərərçəkən varsa o da dövlətdir, dövlətin büdcəsidir. Belədə də məntiqlə indi satışa çıxarılan yaqutdan əldə edilən vəsait də keçmiş "metro şefi"nə yox, dövlət büdcəsinə köçürülməlidir.

Unutmayaq: Tağı Əhmədov hardasa iki il öncə SPACE TV-nin "Sadə həqiqətlər" verilişində rüşvət aldığını açıq etiraf eləmişdi. O, gəlirləri və qazancı ilə bağlı sualı cavablandırarkən sadəlövhcəsinə demişdi ki, dövlətdən heç vaxt pul oğurlamayıb, hər şeyi ancaq öz ağlı ilə qazanıb: "Metronun yanında 21 mərtəbəli bina tikmək üçün sahibkar yanıma gəldi. Mən də ona dedim ki, 21 mərtəbəli binanı yerləşdirmək üçün işləyəcəm, amma haqqı budur...". Tağı Əhmədov bununla, faktiki olaraq, vəzifə səlahiyyətlərindən sui-istifadəyə və korrupsiyaya yol verdiyini etiraf eləmişdi, sadəcə, əldə etdiklərini "öz ağlının nəticəsi" kimi qələmə vermişdi.



Maraqlıdır ki, elə həmin verilişdə Bakı Metropoliteninin sabiq rəisi diqqətçəkici bir açıqlama ilə də çıxış eləmişdi: "Vicdanıma and olsun ki, dövlətdən bir manat götürməmişəm".

Tağı müəllimə inanmaq istərdik, lakin məsələ burasındadır ki, o, "MTN işi"ndə 1 milyon 200 min dollar, 1 milyon 500 min avro və 300 min manat, ümumilikdə isə o vaxtkı xarici valyuta məzənnəsi ilə təxminən 3 milyon manat rüşvət verdiyini bildirmiş, bu qədər pulu hardan aldığına dair məhkəmənin sualını isə maraqlı şəkildə cavablandırmışdı: "O vaxt 3 milyon manat böyük pul deyildi..."

Təsəvvür edirsinizmi, vəzifədəykən aylıq maaşı ən yaxşı halda 1-2 min manat arasında olmuş məmurun fikrincə, 3 milyon manat elə də böyük pul deyil! Halbuki həmin vəsaitin onda birini belə, camaatın 80-90 faizi yəqin ki, heç yuxusunda belə görməyib...

Dediyimi odur ki, sabiq "metro şefi" ilə bağlı hər qalmaqalda söhbət milyonlardan gedirsə, artıq buna hüquqi qiymət verilməsi qaçılmazdır. Aydın görünür ki, cənab Əhmədovun nə sələmə, nə də kimlərəsə rüşvət olaraq verdiyi pullar göydən düşməyib, dövlətin, vətəndaşın cibindən çıxıb, daha doğrusu, çıxarılıb. Elə isə satışa çıxarılan yaqutun pulunu Tağı müəllimə dəymiş ziyanın bir hissəsi olaraq ona ödəmək absurd deyilmi?! Axı ortada zərərçəkən olsa da hər halda bu, Əhmədov deyil, yuxarıda da vurğuladığımız kimi, illər uzunu talan edilən büdcə və vətəndaşın cibidir...

***Toğrul Əliyev***

# Azərbaycan bütün təhdidlərin qarşısını almağa qadirdir

## Millət vəkili: "İranın Zəngəzur dəhlizinin reallaşdırılmasına mane olmaq üçün əlindən gələni etməsi İslamın əxlaq kodeksinə zidd olan əməldir"



***"Son dövrlər ölkəmizə qarşı qonşu ölkələr tərəfindən müəyyən təhdidlərin və əks-təbliğatların aparıldığı daha çox özünü biruzə verir. Bu isə heç şübhəsiz ki, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdikdən sonra bəzi dairələrin daha ciddi narahatlığına səbəb olub".***

Bunu "Unikal"a açıqlamasında deputat Cavid Osmanov deyib. O bildirib ki, İran qonşu olaraq Azərbaycana qarşı riyakar davranır:

"İran 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan təcavüzkar Ermənistana dəstək verir. Qarabağ münaqişəsi bitdikdən sonra İranın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsini açıq-aşkar əngəlləyərək, Zəngəzur dəhlizinin reallaşdırılmasına mane olmaq üçün əlindən gələni etməsi İslamın əxlaq kodeksinə zidd olan əməldir. İran daxil hər bir ölkə anlamalıdır ki, Azərbaycan bütün təhdidlərin qarşısını almağa, bütün təxribatlara qarşı lazımi şəkildə cavab verməyə qadirdir. Bölgədə əməkdaşlıqda maraqlı olan ölkəmiz İranla bağlı məsələlərə hər zaman xüsusi həssaslıqla yanaşıb. Azərbaycan İran İslam Respublikası ilə sıx əməkdaşlıq edən ölkələrdən biridir. Bu da təsadüfi deyil. Məlum olduğu kimi, əhalisinin böyük hissəsi, 30 milyon nəfəri azərbaycanlılardan ibarət olan bu ölkə ilə müstəqil Azərbaycan dövlətini mədəni və mənəvi dəyərlər bağlayır. Məhz bunun nəticəsidir ki, ötən müddət ərzində ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən çoxsaylı ikitərəfli sənədlər imzalanıb. Lakin zamanla İrandan tarixi qardaşlıq münasibətlərinə və İslam həmrəyliyinə xainlik edildiyi ortaya çıxıb".

Deputat qeyd edib ki, İranın 30 ilə yaxın bir müddətdə erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirakı heç kimə sirr deyil: "İşğalçı ölkə olan Ermənistan Qarabağda söküdüyü evləri tikinti materialları kimi İrana satırdı. Meşələrin qırılması və onların İrana daşınması da hər kəsə bəlli idi. İşğal altında olan ərazilər həm narkotik plantasiyalarının yaradılması, narkotik maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Azərbaycanın işğal altında olan ərazilərindən narkotrafik marşrutu kimi istifadə məsələsində İran İslam Respublikası xüsusi fəallığı ilə seçilib. İran Zəngəzur dəhlizi məsələsi aktuallaşandan dərhal sonra yenidən aqressiv ritorikasını bərpa edib, təhdid dolu bəyanatlar səsləndirməyə başlayıb. İranın şimal-qərb bölgəsi ilə həmsərhəd olan Azərbaycan torpaqlarına Ermənistanın nəzarət etməsi siyasi baxımdan da Tehran üçün əlverişlidir. Bu, Azərbaycanla İranın azərbaycanlılar yaşayan şimal-qərb bölgələri arasında "bufer zona"sı demək idi".

Milli Məclisin üzvünün sözlərinə görə, İran rejiminə xidmət edən terrorçuların zərərsizləşdirilməsi bir daha sübut etdi ki, İran Azərbaycanda dini və milli düşmənçilik yaymaq, dini tolerantlığı pozaraq gərginlik yaratmaq niyyətindədir: "İran sözdə bizə dost desə də, faktiki olaraq bu münasibətlərdə səmimi deyil. İnformasiya təhdidləri və təxribatları ilə Azərbaycanın məkanına nüfuz etmək, vətəndaşlar arasında separatizm yaymaq, Azərbaycan dövlətinə itaətsizlik üçün zəmin hazırlamaq və ölkə vətəndaşlarını müxtəlif şirnikləşdirici təkliflər vasitəsilə dünyanın bir nömrəli mübarizə obyektinə çevrilən terrorizmə sövq etmək qonşu ölkənin xarici siyasətinin əsas xüsusiyyətləridir. İran öz potensialını və ölkəmizlə ikitərəfli münasibətlərin mahiyyətini adekvat dəyərləndirməlidir. Cənubi Qafqazın lider ölkəsi, Avropanın enerji təhlükəsizliyində başlıca rollardan birini oynayan, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş hesab olunan, qüdrətli Qalib Orduya malik olan və bütün dövrlərdə humanitar xarakterli qlobal təşəbbüslərlə çıxış edən Azərbaycan ilə hədə və təhdid dilində danışmaq kimsəyə fayda verməz".

C.Osmanov Fransa Senatında qəbul olunan bədnam qətnamədən də danışıb. O vurğulayıb ki, Senatın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qərəzli, ədalətsiz qətnamə qəbul etməsi bu ölkənin ermənipərəst mövqeyi ilə yanaşı işğalçı xislətli ölkə olduğunu bir daha təsdiq edir:

"Fransa tarixdə işğalçı ölkə olaraq qalıb. Bu ölkənin Əlcəzairdə törətdiyi qanlı cinayətlər bəşəriyyət üçün böyük faciələrdəndir. Tarixi qan-qada ilə dolu Fransa bu baxımdan Ermənistana oxşayır və məhz işğalçılıq xislətindən çıxış edərək Ermənistanı dəstəkləyir. Dünyaya azadlıq, demokratiya, söz azadlığı mövzusunda dərs keçməyə çalışan Fransanın Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməsi həmçinin sübut edir ki, bu ölkənin rəhbərliyi və dövlət aparatı özü erməni lobbisinin əlində acizdir və erməni lobbisinə xidmət edir. Təbii ki, məlum qətnamənin qəbul edilməsi Azərbaycana qarşı olan qərəzli mövqenin göstəricisidir. Eyni zamanda bu beynəlxalq hüquqa hörmətsizlik etməklə terroru, iğtişaşı, münaqişəni, işğalı dəstəkləmək, soyqırım müdafiəçisi olduğunu nümayiş etdirməkdir. Azərbaycana qarşı Fransanın daha qərəzli mövqe sərgiləməsi bu ölkənin Prezidenti Makronun da adı ilə sıx bağlıdır. Həmçinin, Makronun bu davranışı onun müsəlman dünyasına nifrətindən doğur. O, hakimiyyətə gələndən sonra Fransada vətəndaşlığından asılı olmayaraq müsəlmanlara qarşı nifrət toxumu səpilir. Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi bu əsassız və qərəzli qətnamələri Yelisey Sarayının qətnamələri kimi qəbul etmək daha doğru olar. Çünki Fransa konstitusiyasına görə təhlükəsizlik, müdafiə və xarici siyasət məsələləri birbaşa hökumətin, daha dəqiqi, Respublika Prezidentinin səlahiyyətinə aid məsələdir. Buradan belə bir qənaətə gəlmək olur ki, Yelisey sarayı dünyada dinc yanaşı yaşamaq, normallaşma prosesinə töhfə verməkdənsə, öz ərazi bütövlüyünü təmin edib, suverenliyi uğrunda mübarizə aparan Azərbaycana qarşı siyasi baxımdan təzyiq göstərir. Bu, həm də rəsmi Parisin siyasi terroru kimi də qiymətləndirilə bilər".

Millət vəkili əlavə edib ki, Azərbaycana qarşı Senat tərəfindən əsassız qətnamənin qəbul edilməsi Makronun riyakarlığını da ifşa edir: "Belə ki, Makronun Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasında özünü vasitəçi kimi təqdim etməyə çalışması və "töhfə vermək istəyi"nin siyasi məkr olduğu aydınlaşır. Ermənistanla çox böyük analogiyaların olduğu Fransanın bu qərəzli mövqeyi Azərbaycan üçün heç nəyi dəyişmək gücündə deyil. Azərbaycanı öz haqlı mövqeyindən heç bir qüvvə, heç bir dairə və ya ölkə geri çəkilməyə məcbur edə bilməz. Fransanın, xüsusilə də onun prezidenti Makronun beynəlxalq hüquqa zidd əməlləri yalnız bu ölkənin özünün gələcəyi üçün zərər verəcək".

***Anar Kəlbiyev***



# "Xovayev Bakıya sülh müqaviləsinə görə gedib" - Zaxarova

***Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Bakıda səfərdədir.***

Xovayev noyabrın 14-də İrəvanda olub və orada Ermənistanın siyasi rəhbərliyi ilə bir sıra məsləhətləşmələr aparıb.

"Unikal" xəbər verir ki, bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O, həmçinin xatırladıb ki, Xovaev Azərbaycan tərəfi ilə görüşmək üçün Bakıdadır.

"Bu təmaslar zamanı sülh müqaviləsi problemləri də müzakirə olunur", - Zaxarova vurğulayıb.

Sülh müqaviləsi ilə bağlı İrəvan və Bakıda verilən bəyanatlara gəlincə, Zaxarova qeyd edib ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı digər məsələlər kimi, sülh sazişinin predmeti də çox çətin, həssas xarakter daşıyır: "Biz konkret razılıq əldə etməzdən əvvəl tərəflərin mövqelərini şərh etməyi məqsədəuyğun saymırıq".

# Jurnalistlər üçün onlayn təlimlər keçiriləcək



***Noyabrın 24-də "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimat mərasimi çərçivəsində yaxın gələcəkdə Medianın İnkişafı Agentliyinin, Media Təhlil Mərkəzinin, "EDUAZ co" MMC-nin və Anadolu Agentliyinin birgə əməkdaşlığı ilə "Eduaz.com" platforması üzərindən jurnalistlər üçün onlayn təlimlərin təşkil ediləcəyi barədə məlumat verilib.***

Layihə ilə bağlı təqdimatla çıxış edən "EDUAZ co" MMC şirkətinin layihə meneceri Lalə Həsənova bildirib ki, jurnalistlərin peşəkarlığının artırılması, bu sahədə yeni tendensiyaların öyrənilməsi məqsədilə medianın istifadəsinə veriləcək onlayn təlim platforması daha geniş auditoriyanı əhatə edəcək, vaxta qənaət edilməsinə şərait yaradacaq, məkan və zamandan asılı olmayaraq təlimlərdən faydalanma və rahat funksionallıqdan istifadə imkanı təqdim edəcəkdir.

Təlimlərin sonunda onlayn sertifikatların təqdim edilməsini nəzərdə tutan layihə təkcə media nümayəndələri üçün deyil, eyni zamanda tələbələr, müəllimlər və biznes subyektləri üçün də müxtəlif mövzuların öyrənilməsi, şəxsi inkişafın təmin edilməsi sahəsində operativ və çoxməzmunlu platformaya çevriləcək, öyrənmə və inkişaf imkanlarını artırmaq istiqamətində effektiv yerli resurs olacaqdır.

Daha sonra platformada təşkil edilən kurslar barədə məlumat verilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Prezident bu səfirlərin etimadnaməsini qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Liviya Dövlətinin ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ali Salem Naserin etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, səfir Ali Salem Naser etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra səfirlə söhbət edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan və Liviya həmişə bir-birinə dost olub və maraqlarını müdafiə ediblər. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində bütün məsələlərlə bağlı qarşılıqlı dəstək nümayiş etdirirlər. Prezident İlham Əliyev vurğuladı ki, həm işğal dövründə, həm də işğaldan sonra Ermənistan-Azərbaycan məsələsi ilə bağlı ölkəmiz həmişə Liviyanın dəstəyini görüb. Bu dəstəyin, eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də olduğunu deyən dövlətimizin başçısı buna görə Liviya tərəfinə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev bu yaxınlarda Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilən 31-ci Zirvə toplantısında iştirakını məmnunluqla xatırladaraq, bu tədbirdə çıxışında ərəb dövlətləri ilə Azərbaycan arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə danışdığını vurğuladı. Prezident İlham Əliyev dedi ki, Azərbaycanın bu Zirvə toplantısına fəxri qonaq qismində dəvət olunması ərəb dünyasının ölkəmizə münasibətini bir daha nümayiş etdirdi.

Azərbaycan Prezidenti dostluq əlaqələri nəzərə alınmaqla ikitərəfli münasibətlərimizin, xüsusilə də iqtisadiyyat, ticarət və energetika sahələrində əməkdaşlığımızın fəallaşdırılmasının zəruriliyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Liviya Prezident Şurasının sədri Məhəmməd Yunis əl-Mənfinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məhəmməd Yunis əl-Mənfiyə çatdırmağı xahiş etdi.

Ali Salem Naser səfir kimi fəaliyyəti dövründə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi. Səfir dövlətlərimizin və xalqlarımızın maraqları naminə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələndirmənin və əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğuladı.

Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldova Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Aleksandr Esaulenkonun etimadnaməsini qəbul edib.

"Unikal" xəbər verir ki, etimadnaməsini dövlətimizin başçısına təqdim edən səfir Aleksandr Esaulenko Azərbaycan dilində dedi:

- Hörmətli cənab Prezident, icazə verin Sizi, burada olanların hamısını və bütün Azərbaycan xalqını Vətən müharibəsində Zəfərin ikinci ildönümü münasibətilə şəxsən Azərbaycan dilində təbrik edim.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu vurğuladı və konkret sahələr üzrə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Siyasi sahədə yaxşı qarşılıqlı fəaliyyətin olduğunu qeyd edən dövlətimizin başçısı yüksək səviyyədə təmasların əhəmiyyətini və ticarət mübadiləsinin artırılmasının vacibliyini vurğuladı, nəqliyyat, energetika, investisiya qoyuluşu sahələrində əlaqələrin dərinləşdirilməsi üçün imkanların olduğunu dedi.

Beynəlxalq səviyyədə ölkələrimizin qarşılıqlı dəstəyinə toxunan Prezident İlham Əliyev Azərbaycanın və Moldovanın ikitərəfli formatda da həmrəylik nümayiş etdiriklərini vurğuladı.

Dövlətimizin başçısı səfir Aleksandr Esaulenkonun fəaliyyəti dövründə əlaqələrimizin möhkəmlənməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Aleksandr Esaulenko Moldova Prezidenti Maya Sandunun dövlətimizin başçısına salamlarını və Azərbaycan xalqına ən xoş arzularını çatdırdı. Qeyd etdi ki, Moldova Respublikasının rəhbərliyi Moldova-Azərbaycan dövlətlərarası münasibətlərinin dərinləşdirilməsi və genişləndirilməsinə çox böyük diqqətlə yanaşır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Moldovanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Səfir əlaqələrimizin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi, ikitərəfli əlaqələrin inkişafında qarşılıqlı təmasların rolunu vurğuladı. Bu xüsusda, Moldovanın Baş naziri, parlament sədri və digər rəsmi şəxslərinin ölkəmizə səfərlərinin əhəmiyyətinə toxundu. Aleksandr Esaulenko vurğuladı ki, Moldova siyasi, iqtisadi və digər sahələrdə Azərbaycanla əlaqələrin bundan sonra da genişləndirilməsində maraqlıdır.

# Prezident Administrasiyasında yeni şöbə yaradılıb



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasında yeni şöbə yaradılıb.***

"Unikal" xəbər verir ki, PA-da yeni yaradılan şöbə Hərbi-texniki təminat məsələləri şöbəsidir.

Prezident İlham Əliyevin sərəncamı ilə Andrey Vladimiroviç Sipilin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri təyin edilib.


Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700


# Yeni ildə ardıcıl 5 gün iş olmayacaq



***31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar Azərbaycanda ardıcıl 5 gün iş olmayacaq.***

"Unikal" xəbər verir ki, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 1-2 yanvar Yeni illə bağlı bayram günləri elan edilib.

Azərbaycanda bayram günləri və tətil Əmək Məcəlləsinə uyğun olaraq tənzimlənir. Müvafiq olaraq, 2022-ci il 31 dekabr və 2023-cü il 1 yanvar tarixləri şənbə və bazar günlərinə təsadüf etdiyindən qanunvericiliyə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 2023-cü il 3 və 4 yanvar tarixləri qeyri-iş günü olacaq.

Bu hesabla, Yeni il bayramında ardıcıl 5 gün qeyri-iş günü olacaq.

# Baş Prokuror yanında Elmi-Məsləhət Şurasına yeni üzvlər seçildi



***Baş Prokuror yanında Elmi-Məsləhət Şurasına iki yeni üzv qəbul edilib.***

"Unikal" xəbər verir ki, bunu Baş prokuror Kamran Əliyev Elmi Məsləhət Şurasının iclasında deyib.

Baş prokuror bildirib ki, Elmi Şuraya "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi"nin icraçı direktor Samir Mahmudov və Vəkillər Kollegiyasının üzvü İlhamə Həsənova seçilib.

# BMT-dən İrandakı etirazlarda öldürülənlərlə bağlı dəhşətli statistika



***İranda baş verən etirazlar zamanı 40-ı uşaq olmaqla 300 nəfər həlak olub. Uşaqlar da olmaqla təxminən 14 min nəfər həbs olunub. Bu, qəbuledilməzdir.***

Bu barədə BMT-nin İnsan haqları üzrə Ali komissarı Volker Turk təşkilatın İnsan Haqları Şurasının İranda insan haqlarının vəziyyətinə dair keçirilən xüsusi sessiyasında bildirib. Onun sözlərinə görə, insan haqları pozuntuları ilə bağlı cəzasızlığın davam etməsi İranda əsas problemlərdən biridir:

"Bunun nəticəsində narazılıq və etimadsızlıq artır. İran rəsmilərini dinc etiraz aksiyaları zamanı həbs edilənləri azad etməyə və ölüm hökmünə moratorium tətbiq etməyə çağırıram".

# Ceyhun Bayramov Ermənistana xəbərdarlıq etdi



***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, nazir jurnalistlərə açıqlamasında Ermənistanın Laçın dəhlizindən razılaşmalara zidd formada istifadə etdiyini bildirib.

"Üçtərəfli bəyanata əsasən dəhlizin prinsipləri və istiqamətləri var. Ancaq dəhliz buna zidd olaraq istifadə edilir. Buna son qoyulmalıdır. Azərbaycan tərəfi bütün lazımi addımları atacaq. Bununla bağlı həm beynəlxalq müstəvidə, həm də digər tərəfdaşlarla danışıqlarımız davam edəcək", - deyə XİN rəhbəri vurğulayıb.

# "Sülhməramlıların müvəqqəti yerləşdiyi əraziyə hərbi texnikalar daşınır"

## DTX generalı: "Orada müxtəlif təxribat xarakterli tədbirlərin keçirilməsinə şərait yaradılması da xüsusilə diqqət çəkir"



***Azərbaycan Respublikası Təhlükəsizlik Şurası Katibinin Xidmətinin təşkilatçılığı ilə "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfrans keçirilib.***

Təhlükəsizlik Şurası Katibinin Xidmətindən "Unikal"a verilən xəbərə görə, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibinin Xidmətinin təşkilatçılığı ilə "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfrans öz işinə başlayıb.

Tədbirdə Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil Usubov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, DTX-nin rəisinin birinci müavini, general-leytenant Ceyhun Şadlinski, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi, general-mayor İlqar Abbasov, hüquq-mühafizə və digər dövlət orqanlarının rəhbər əməkdaşları, Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargahının və Milli Təhlükəsizlik Şurası Baş Katibliyinin nümayəndələri iştirak etmişlər. Konfransın məqsədi Vətən müharibəsinin nəticələrinin təhlilinin və müharibədə qazanılmış hərbi təcrübənin aidiyyəti qurumlar arasında mübadiləsinin təmin olunmasıdır.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin "Şöhrət" muzeyinin qarşısında ucaldılan abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzüblər.

Ulu Öndərin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Öncə çıxış edən Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil Usubov tədbirin təşkilində göstərdiyi dəstəyə görə DTX-nin rəhbərliyinə minnətdarlığını ifadə etmiş, bu mövzuda konfransın keçirilməsinin əhəmiyyətindən danışmışdır. O, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi altında şanlı qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsinin tariximizdə silinməz iz buraxdığını, bu müharibənin ordumuzun döyüş təcrübəsinin artırılmasında əvəzsiz rol oynadığını, hərbi əməliyyatların planlaşdırılması və aparılmasının xarici ölkələrin hərbi müəssisələrində öyrənildiyini diqqətə çatdırmışdır. General-polkovnik Ramil Usubov müharibənin nəticələrinin təhlilinin və əldə olunan təcrübənin milli təhlükəsizliyin etibarlı təminatı, silahlı qüvvələrimizin müdafiə qabiliyyətinin artırılmasında önəmli amil olduğunu bildirib.

Daha sonra müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edərək ölkə rəhbərinin tapşırığı əsasında, Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun hərbi potensialının artırılması yönümündə həyata keçirilən islahatlar, yeni hərbi birliklərin yaradılması, qarşıya qoyulmuş vəzifələrin operativ və çevik yerinə yetirilməsi üçün silahlı qüvvələrimizin şəxsi heyətinin hərbi təhsil səviyyəsinin yüksəldilməsi, müasir hərbi texnika və avadanlıqlarla təchiz olunması barədə məlumat verib.

DTX-nin rəisinin birinci müavini, general-leytenant Ceyhun Şadlinski çıxışında qeyd etmişdir ki, iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində görülən işlərə Ermənistandakı revanşist qüvvələrin hər vəchlə maneçilik törətməyə çalışması, bu ölkənin silahlanmaya və ordu quruculuğuna öz imkanlarından artıq maliyyə vəsaiti ayırması, müxtəlif xarici dövlətlərdən müasir silah və hərbi təyinatlı avadanlıqlar almağa cəhdlər göstərməsi, sülh müqaviləsinin imzalanmasını bütün mümkün vasitələrdən istifadə etməklə yubatmağa meyl etməsi narahatlıq doğuran məqamlardır. Həmçinin vurğulanmışdır ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisinə hərbi texnikaların daşınması, orada müxtəlif təxribat xarakterli tədbirlərin keçirilməsinə şərait yaradılması da xüsusilə diqqət çəkir. İran xüsusi xidmət orqanlarının Azərbaycana qarşı aktiv şəkildə həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətindən də danışan natiq bu istiqamətdə görülən kəsərli tədbirlərdən söhbət açıb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev bildirmişdir ki, həm Vətən müharibəsi zamanı, həm də müharibədən sonrakı dövrdə məkrli qüvvələr tərəfindən respublikamızın informasiya təhlükəsizliyinə yönələn təhdidlərin və kiberhücumların qarşısının alınması, savaş dövründə hərbi obyektlərimizin xüsusi rabitə avadanlıqları ilə təminatı, radiostansiyaların işinin səmərəli təşkili üçün digər qurumlarla birgə lazımi tədbirlər görülüb.

Konfrans öz işini noyabrın 25-dək hərbi təhlükəsizlik, səfərbərlik hazırlığı, strateji kommunikasiya, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, mülki müdafiə və digər aidiyyəti mövzular üzrə mühazirələr və panel müzakirələrlə davam etdirəcəkdir.



# Vatikanın yeni səfiri Prezidentin qəbulunda

***Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs Taxt-Tacın ölkəmizdə yeni təyin olunmuş apostol nunsisi arxiyepiskop Marek Solçinskinin etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, Müqəddəs Taxt-Tacın apostol nunsisi etimadnaməsini dövlətimizin başçısına təqdim etməkdən şərəf hissi duyduğunu dedi. Marek Solçinski bildirdi ki, Roma Papası Fransisk Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya onun salamlarını çatdırmağı xahiş edib. O dedi ki, Roma Papası dövlətimizin başçısına xalqa şərəflə rəhbərlik missiyasının uğur qazanması üçün dualar edir.

Sonra Marek Solçinski etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Apostol nunsi ilə söhbət edən Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanda və Vatikanda Roma Papası ilə görüşlərini məmnunluqla xatırlayaraq, onun ölkəmizə səmimi münasibətini həmişə hiss etdiyimizi vurğuladı. Dövlətimizin başçısı Roma Papasının Azərbaycana rəsmi səfərini tarixi səfər kimi qiymətləndirərək, bunun ikitərəfli münasibətlərimizi, eyni zamanda, bizim tərəfdaşlıq ruhunun, multikulturalizm, sülh və tolerantlıq dəyərlərinin təşviqinin zəruriliyini nümayiş etdirdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Vatikanda ayrıca səfirliyinin fəaliyyətə başlayacağını deyərək, bunun əməkdaşlığın dinamizminə xidmət göstərəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanın Vatikanın tarixi yerlərinin bərpasında iştirakından məmnunluq duyduğunu bildirdi və bunu mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirərək, Azərbaycan tərəfinin bu işi davam etdirməyə hazır olduğunu dedi.

Prezident İlham Əliyev ölkəmizdə mütəmadi keçirilən mədəniyyətlərarası dialoq forumunun bu sahədə beynəlxalq əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyini bildirdi.

Bakıda yenidən olmasından çox xoş təəssürat hissi keçirdiyini deyən Marek Solçinski Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə etdi.

# Hərbi attaşelər Sarıbabada mina sahəsinə baxıb

***Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri və kütləvi informasiya vasitələrinin nümayəndələri qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçiriblər.***

Müdafiə Nazirliyindən verilən məlumata görə, MN-in təşkilatçılığı ilə keçirilən səfərdə nümayəndələrə ərazidə aparılan minatəmizləmə tədbirləri və noyabrın 21-də aşkar olunan 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-G tipli piyada əleyhinə mina sahəsi haqqında ətraflı məlumat verilib.



# Son 4 ayda Kəlbəcər və Laçında 2 728 mina aşkarlanıb

***Son dörd ayda Kəlbəcər və Laçında aşkarlanan minaların sayı açıqlanıb.***

"Unaikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyindən bildirilib. Qeyd olunub ki, bu ilin avqust ayından etibarən sözügedən minalar daxil olmaqla, Azərbaycan-Ermənistan arasında sərhədin Kəlbəcər və Laçın sahəsində 1119, Qarabağ iqtisadi rayonu ərazisində isə 1609 ədəd 2021-ci il Ermənistan istehsalı minalar (ümumilikdə 2728) aşkarlanaraq zərərsizləşdirilib.

Xatırladaq ki, noyabrın 21-də Sarıbaba yüksəkliyinin şimal istiqamətində Azərbaycan ərazilərindən hələ də çıxarılmamış erməni silahlı dəstələri tərəfindən basdırılmış 2021-ci il Ermənistan istehsalı 350 ədəd PMN-G tipli piyada əleyhinə minalar aşkarlanıb.



# Ermənistan Laçın yolundan qeyri-qanuni istifadə edir

***XİN: "Ermənistanın bu fəaliyyəti müharibə cinayətidir, beynəlxalq humanitar hüququn və Ermənistanın Üçtərəfli bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərinin ciddi pozuntusudur"***

Xarici İşlər Nazirliyi Azərbaycan ərazilərində Ermənistan istehsalı olan yeni minaların aşkarlanması və davam edən mina təhdidi barədə məlumat yayıb. "Unikal" xəbər verir ki, məlumatda deyilir. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, Sarıbaba yüksəkliyinin şimal istiqamətində Azərbaycan ərazilərindən hələ də çıxarılmamış erməni silahlı dəstələri tərəfindən basdırılmış 2021-ci il Ermənistan istehsalı 350 ədəd PMN-G tipli piyada əleyhinə minalar aşkarlanıb.

Qeyd edək ki, cari ilin avqust ayından etibarən sözügedən minalar daxil, Azərbaycan-Ermənistan arasında sərhədin Kəlbəcər və Laçın sahəsində 1119, Qarabağ iqtisadi rayonu ərazisində isə 1609 ədəd 2021-ci il Ermənistan istehsalı minalar (ümumilikdə 2728) aşkarlanaraq zərərsizləşdirilmişdir.

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin rəhbəri general-mayor Fatih Akpınar və Rusiya kontingentinin rəhbəri kontr-admiral Oleq Semyonov noyabrın 23-də minalı ərazilərə və minalara baxış keçiriblər. 24 noyabr tarixində əraziyə Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri və jurnalistlər də səfər ediblər.

Qeyd olunan hallar Ermənistanın 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın 4-cü bəndinə zidd şəkildə qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmamaqla yanaşı, Üçtərəfli bəyanatın 6-cı bəndini kobudcasına pozaraq minaların ötürülməsi ilə Ermənistanın Laçın yolundan qeyri-qanuni hərbi fəaliyyətləri üçün sui-istifadə etdiyini və bununla Azərbaycana qarşı təxribatlar törətdiyini bir daha nümayiş etdirir.

Ermənistan tərəfindən Azərbaycan ərazilərində hərbi təxribatların davam etməsi, qüvvələrini tam şəkildə ərazilərimizdən çıxarmaması, ərazilərimizin məqsədyönlü şəkildə minalanmasının davam etməsi post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına mane olan əsas təhdidlərdəndir.

Xatırladırıq ki, 2020-ci il Vətən müharibəsinin başa çatmasından etibarən bu günədək 268 vətəndaşımız mina partlayışından zərər çəkib, onlardan 3 nəfər jurnalist daxil 45 nəfər həlak olub. Həlak olan 45 nəfərdən 35 nəfər mülki şəxsdir.

Qeyd edilənlər bir daha göstərir ki, Ermənistan normallaşma prosesinə və bölgədə sülhün bərqərar olması səylərinə maneçilik törədir. Ermənistanın bu fəaliyyəti müharibə cinayətidir, beynəlxalq humanitar hüququn və Ermənistanın Üçtərəfli bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərinin ciddi pozuntusudur".

***İnformasiya siyasəti***

# "Partiyaları cəmiyyət özü saf-çürük etməlidir"

## Fazil Mustafa: "Qanun layihəsi bu ilin sonuna qədər qəbul olunsa, qarşıdakı ildən yeni bir qanunla, aktiv, canlanmış siyasi həyatı müşahidə edəcəyik."

***Böyük Quruluş Partiyasının başqanı, Milli Məclisin deputatı Fazil Mustafa "Unikal"a müsahibə verib. O, "Siyasi partiyalar haqqında" qanun layihəsinə təklif edilən dəyişikliklərdən, bu layihənin ilkin variantında nəzərdə tutulan bir sıra təkliflərin ləğv edilməsindən, Azərbaycanda yenidən proporsional seçki sisteminin tətbiq edilməsi ehtimalından, dərman və ərzaq qiymətlərinin bahalaşmasından danışıb.***

***-Milli Məclisin üç komitəsinin birgə iclasında "Siyasi partiyalar haqqında" yeni hazırlanan qanun layihəsinin birinci oxunuşda müzakirəsi keçirilib. Məlum olduğu kimi, layihəyə ümumilikdə 66 düzəliş edilib. Bu dəyişikliklərin edilməsini necə qiymətləndirirsiz və əvvəlki təkliflərdən nə ilə fərqlənir?***

-"Siyasi partiyalar haqqında" qanun layihəsinin geniş ictimai müzakirəsi cəmiyyətdə kifayət qədər rezonans doğurdu. Əksər siyasi partiyaların təmsilçiləri bu prosesdə iştirak etdilər. Əvvəlcədən bildirilmişdi ki, bu qanun layihəsində bütün təkliflərin nəzərə alınması üçün kifayət qədər imkanlar var. Layihənin ilkin variantını gözdən salmaq üçün bəzi qaralama kampaniyası aparılsa da, zaman göstərdi ki, məsələlər elə deyil. Müxalifət partiyaları tərəfindən təklif olunan bütün variantlar nəzərdən keçirildi. Təkliflər bir sıra müddəalarda öz əksini tapdı. Xüsusilə, partiya üzvlərinin sayının 10 mindən 5 minə endirilməsi, təsisçilərin sayının 200-dən 50-yə endirilməsi və başqa məsələlər nəzərə alındı. Eyni zamanda, partiyaların fəaliyyətinə dövlət nəzarəti daha çox maliyyə imkanlarının yoxlanılması ilə məhdudlaşdırıldı. Qanun layihəsinə edilən bu dəyişikliklər xeyli irəliləmə kimi qeyd olunmalıdır. Bu, ayrı-ayrı siyasi partiya təmsilçilərinin maraqlarını ifadə edən bir sənəd kimi müzakirəyə çıxarılır. Sənədə bundan sonra da müəyyən dəyişikliklər ola bilər. Söhbət burada ağlabatan və məqsədyönlü təkliflərdən gedir. Komitə iclasında bir sıra təkliflər səsləndirdik. Qarşıdakı müzakirələr zamanı da qanun layihəsinə müəyyən əlavə və dəyişikliklərin edilməsi mümkündür.

***-Bundan əvvəl qanun layihəsində seçkilərdə 2 dəfə iştirak etməyən partiyaların ləğvinə dair bənd var idi. Bu məsələ geniş müzakirələrə səbəb olmuşdu. Yeni variantda isə bu tələb aradan qaldırılır. Bunu necə qiymətləndirirsiz?***

-Bəli, bundan əvvəl qanun layihəsində seçkilərdə iki dəfə iştirak etməyən partiyaların ləğv olunması məsələsi var idi. Bu müddəa aradan qaldırıldı. Bu məsələ partiyanın seçkilərdə iştirak edib-etməməsindən daha çox ictimai rəyin partiyaları dəyərləndirməsi və qiymətləndirməsi üzərində quruldu. Belə ki, partiya seçkiyə qatılmayacaqsa, öz imkanlarını, təbliğatını zəiflədəcək, dəstəyini azaldacaq. O baxımdan, bunu inzibati qaydada etməyə gərək yoxdur.

***-Sizin yeni qanun layihəsi ilə bağlı hər hansı təklifləriniz varmı? Varsa, onlar nəzərə alınıbmı?***

-Bizim yeni qanun layihəsi ilə bağlı bir sıra təkliflərimiz oldu. Partiyaların fəaliyyət proqramında ideoloji məsələlərin ortadan qaldırılmasını nəzərdə tutan bir yanaşma ortaya qoyduq. Proqramın adının ideoloji xarakter alması tələbi bir az məqsədəuyğun deyil. Müasir dövrdə partiyalar ideoloji partiya modelindən xeyli uzaqlaşıblar. Partiyaların qeydə alınmadan əvvəl fəaliyyət göstərməsini məhdudlaşdıran müddəaların aradan qaldırılmasını istədik. Bu da vacib məsələdir. Pandemiya, epidemiya şəraitində partiyaların onlayn tədbir və iclaslar keçirməsi nəzərdə tutulur. Təklif etdi ki, bu hal hərbi vəziyyətdə də nəzərə alınsın.

***-Azərbaycanda siyasi partiyaların sayının çox olması ilə bağlı fikirlər səsləndirilir. Partiyaların sayının azaldılması kimi təkliflər də olur. Siz necə düşünürsüz, ölkəmizdə partiyaların sayı çoxdurmu?***

-Siyasi partiyaların sayını süni surətdə azaltmaq olmaz. Partiyaları cəmiyyət özü saf-çürük etməlidir. Ona görə də nə dövlətin, nə də cəmiyyətin qarşısında belə bir məqsəd yoxdur. Hansı partiya öz fəaliyyətini normal tənzimləyə bilməyəcəksə, özünü sıradan çıxardacaq. Partiyanın təbliğatı zəif olacaqsa, bu da müəyyən problemlər yaradacaq. Ümumiyyətlə, qanunun müzakirəsi çox şeyi ortaya qoyacaq. Qanun layihəsi bu ilin sonuna qədər qəbul olunsa, qarşıdakı ildən yeni bir qanunla, aktiv, canlanmış siyasi həyatı müşahidə edəcəyik.



***-Seçki məcəlləsinə dəyişiklik edilməsinə ehtiyac olduğu ilə bağlı mövqe bildirənlər var. Sizcə, Azərbaycanda proporsional seçki sisteminə keçid mümkündürmü?***

-Bu qanunun seçki sistemi ilə elə bir əlaqəsi yoxdur. Seçki sistemi konstitusiyada nəzərdə tutula bilər. Əgər referendum olarsa, həmin məsələyə baxıla bilər. Proporsional seçki sisteminə keçilməsi partiyaların inkişafı üçün əsas amillərdən biridir. Yəqin ki, bu məsələ də müzakirə olunacaq.

***-Ölkəmizdə insanları ən çox narahat edən məsələlərdən biri də ərzaq və dərman qiymətlərinin bahalaşmasıdır. Həmçinin, dərman qıtlığının olduğu da qeyd edilir. Qiymət artımlarının qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

-Ərzaq və dərman qiymətlərinin bahalaşmasının təbii səbəbləri olsa da, qiymətlərin artması daha çox subyektiv amillə bağlıdır. Vaxtında bu sahədə lazımi tədbirlər görülməyib. Türkiyədəki dərman qiymətləri ilə Azərbaycandakı qiymətlər arasında 3-4 dəfə fərq var. Bu o deməkdir ki, burada özbaşınalıq var. Kimlərsə bu sahəyə vətəndaşın xəstəliyi bahasına pul qazanma yeri kimi baxır. Ərzaqla bağlı da təqribən eyni variantdır. Ona görə də qiymət artımlarının dövlət tərəfindən tənzimlənməsini gözləmək sadəlövhlük olar. Dövlət müəyyən müdaxilə edə bilər. Amma bazar iqtisadiyyatında bunu etmək çox çətindir. Rəqabət mühiti yaratmaq lazımdır. Belə ki, məhsul çox olanda qiyməti bu qədər artırmaq mümkün olmur. O zaman sahibkar məcburdur ki, özünü ümumi bazar standartlarına uyğunlaşdırsın.

***Anar Kəlbiyev***

# Cavanşir Feyziyevlə bağlı yeni sensasion iddia

## Deputata aid edilən şirkət ölkə xaricinə valyuta çıxarıb, ancaq heç bir xidmət almayıb - şok protokol...

***Millət vəkili Cavanşir Feyziyevə məxsus "Avromed Company" QSC barəsində protokol tərtib edilib. Şirkət rəhbərliyi iqtisadi fəaliyyət qaydalarını pozmaqda təqsirli bilinir (Qafqazinfo).***

Şirkətə İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə protokol yazılıb.

Müddəanın tələblərinə əsasən, "Avromed Company" xidmət almaq üçün avans yolu ilə ölkə xaricinə valyuta çıxarıb. Lakin hər hansı xidmət almayıb və həmin valyuta ölkəyə geri qaytarılmayıb.

Protokola Nəsimi Rayon Məhkəməsində baxılır. İddia təsdiqini taparsa, şirkəti ölkədən çıxardığı valyutanın 30 faizi məbləğində cərimə cəzası gözləyir.



Qeyd edək ki, "Avromed Company" 2002-ci ildən fəaliyyətə başlayıb və əczaçılıq sahəsində ölkənin ən böyük şirkətlərindən biridir.

Feyziyevə aid şirkətlə bağlı tərtib edilən protokolun tələbi kifayət qədər diqqətçəkicidir və istər-istəməz bu ilin əvvəlində deputatın ətrafında baş verən qalmaqalı yada salır.

Xatırladaq ki, həmin vaxt Böyük Britaniyanın Milli Cinayət Agentliyinin araşdırmasından sonra adıçəkilən deputatın yaxınlarına məxsus bank hesabındakı milyonlarla funt-sterlinqin müsadirə edildiyi bildirilirdi.

Bu barədə yayılan məlumatda deyilirdi ki, Britaniyalı maliyyə müstəntiqləri Azərbaycan parlamentinin deputatı, Böyük Britaniya-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyevin ailə üzvlərinə məxsus Böyük Britaniyada 5,6 milyon funt-sterlinq məbləğində bank hesablarının müsadirə edilməsi haqqında sərəncam imzalayıblar.

Müsadirə olunan hesabları deputatın həyat yoldaşı Pərvanə Feyziyeva, oğlu Orxan Cavanşir və qardaşı oğlu Elman Cavanşirə aiddir. Müstəntiqlər bu hesablardakı vəsaitlərin çirkli pullarla əldə olunduğunu bildirib.

Məlumata görə, Cavanşir Feyziyevin yaxınlarına aid dondurulmuş hesablarda 15,3 milyon funt-sterlinq olub. Bu məbləğin 5,630,994,19 funt-sterlinqinin müsadirəsinə göstəriş verilib.

"Westminster Magistrates" Məhkəməsində üç həftəlik mübahisəli müsadirə dinləməsindən sonra, Dairə Hakimi Con Zani bu sənədlərin tamamilə uydurma olduğuna və hesabları təşkil edənlərin əsas çirkli pulların yuyulması fəaliyyətlərini gizlətmək üçün hazırlandığına dair çoxlu sübutların olması ilə bağlı qərar verib. Bunun ardınca daha bir ilginc hadisə yaşandı - Feyziyev özünə yaxın media vasitəsilə məlum məhkəmə qərarını Azərbaycanda fərqli cür təqdim etməyə çalışdı. Bir növ həmin qərarı "yuyub" təmizə çıxarmağa cəhd etdi. Lap elə pul yumaq kimi! Hətta iş o yerə çatdı ki, Cavanşir müəllim ölkənin rəsmi xəbər agentliyində belə Londonda çıxarılan hökmü, az qala, "ədalətin bərpası" kimi qələmə verməkdən çəkinmədi. Düzdür, həmin agentlik sözügedən xəbəri sonradan sildi, lakin bu acı reallığı dəyişmirdi....

Məsələ gün kimi aydın idi: Feyziyev London məhkəməsinin məlum qərarını fərqli, bu barədə xəbəri yanlış təqdim etməklə özü və fəaliyyəti ətrafında "çirkli pul" şübhələrini aradan qadırmaq istəyirdi. Əvəzində isə "qaş qayırdığı yerdə vurub göz çıxardı".

Bu olayların üstündən aylar keçdikdən sonra indi də deputata məxsus şirkətin xidmət almaq üçün avans yolu ilə ölkə xaricinə valyuta çıxardı, lakin hər hansı xidmət almadığı və həmin valyutanı ölkəyə geri qaytarmadığı anlaşılır. Kifayət qədər maraqlı və müəmmalı nüansdır...

Unutmayaq ki, Londondakı məlum məhkəmə prosesində ilginc bir detal da açıqlanmışdı. Bildirilmişdi ki, Feyziyevin ailə üzvlərinin İngiltərədəki hesablarına pul vəsaiti deputatın Latviyadakı bankındakı hesabından gəlib, həmin hesaba isə təxminən 34,5 milyon dollarlıq köçürmə deputatın həmtəsisçisi olduğu "Avromed" şirkətinin eyni bankdakı hesabından edilib.

O da iddia edilirdi ki, "Avromed"in sözgedən hesabına iki şirkətdən - Hilux və Poluxdan ayrı-ayrılıqda, ümumi məbləği 36 milyon dollar təşkil edən vəsait daxil olub.

Yeri gəlmişkən, C.Feyziyev son zamanlarda adıçəkilən şirkətlə hər hansı bağlılığının qalmadığını iddia edir. "Avromed"lə bağlı tərtib edilən protokol barədə danışarkən onun köməkçisi də şirkətin hazırda deputata məxsus olmadığını bildirib: "Cavanşir Feyziyev 2002-2010-cu illərdə şirkətin direktoru və həmtəsisçisi olub. 2010-cu ildə IV çağırış Milli Məclisə üzv seçilməklə əlaqədar direktor vəzifəsindən azad olunub. 2016-cı ildə isə "Avromed" şirkətindəki səhmlərini satıb və o vaxtdan etibarən şirkətlə heç bir əlaqəsi yoxdur". Bununla belə, yerli media Cavanşir müəllimin şirkətlə qeyri-rəsmi bağlılığının olmasında israr edir.

Həmçinin, Azərbaycan təcrübəsində bəzi vəzifəli şəxslərin və millət vəkillərinin öz nəzarətlərində, yaxud himayələrində müxtəlif biznes strukturları saxladığı kimsəyə sirr deyil.

*Sənan Mirzə*

# Qarabağ qazisi olan jurnalist vəfat etdi



***Vətən Müharibəsi Veteranları İctimai Birliyinin (AVMVİB) Mətbuat xidmətinin rəhbəri, jurnalist, Qarabağ qazisi Xəqani Rzaquliyev vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə Qarabağ qazisi Rey Kərimoğlu bildirib.

O, Birinci Qarabağ müharibəsində iştirak edib və 1992-ci il martın 12-də ağır yaralanıb.

# Fransa azərbaycanlıları bəyanat yaydı

***"Biz, Fransa azərbaycanlıları Fransa Milli Assambleyası tərəfindən 28 noyabr 2022-ci il tarixində müzakirəyə çıxarılacaq, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə xidmət etməyən və regionda sülhyaratma prosesinə kölgə salan 388 saylı qətnamə layihəsini hüquq və ədalət baxımından son dərəcə təhlükəli təşəbbüs hesab edərək qəti etirazımızı bildirir və layihə müəlliflərinin belə qərəzli yanaşmasını kəskin şəkildə qınayırıq".***

"Unikal"ın məlumatına görə, bəyanatda qeyd olunur ki, bu addım hər şeydən əvvəl Fransada uzun illərdir yaşayan və fransız cəmiyyətinə inteqrasiya etmiş, həmçinin Fransanı özünə yaxın bilən hər bir azərbaycanlı üçün ağır mənəvi zərbədir.

Bu layihə hər şeydən əvvəl fransızların tarixən mövcud olmuş "Azadlıq, bərabərlik, qardaşlıq" ideyasına, əxlaqa və normal siyasi məntiqə tamamilə ziddir. Dünyaya insan azadlığı, demokratiya və hüquq bərabərliyi ilə bağlı nümunə olmağa çalışan bir ölkənin Milli Assambleyasının beynəlxalq hüququn ümumqəbul edilmiş norma və prinsiplərini və mənəvi qaydaları kobud şəkildə pozaraq belə bir sənədi müzakirəyə çıxarmasını siyasi cəhətdən yanlış addım olmaqla yanaşı, həm də böyük ədalətsizlik hesab edirik.

Öz azadlığı, suverenliyi, ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparan Azərbaycan kimi bir ölkəyə olan bu haqsızlıq bütövlükdə demokratiyaya qarşı ədalətsizlik və haqsızlıq kimi qəbul edilməlidir ki, bu da öz növbəsində nə beynəlxalq hüquqa, nə də elementar məntiqə sığır.

Layihə müəlliflərinə üz tutaraq bildiririk ki, məlum qətnamə layihəsi ilə siz multikulturalizm dəyərləri ilə yaşayan bir ölkədən - Azərbaycandan üz döndərərək, totalitar, monoetnik bir dövlət olan işğalçı Ermənistana öz dəstəyinizi göstərmiş olursunuz.

Təəssüf hissi ilə xatırladırıq ki, 30 illik erməni işğalı dönəmində yüz minlərlə azərbaycanlının doğma yurdlarından didərgin salınmasına, təməl insani haqlarından məhrum edilməsinə, minlərlə həmvətənimizin ermənilər tərəfindən qətlə yetirilməsinə, amansız işgəncələrə məruz qalmasına göz yuman, illərdir yaşayıb uğurla fəaliyyət göstərdiyimiz bir ölkə tərəfindən belə qərəzli yanaşma birinci dəfə deyil ki, nümayiş etdirilir. Belə ki, tarixi Vətənimiz Azərbaycan təkcə erməni işğalçılarına qarşı 2020-ci ildə Vətən müharibəsi günlərində apardığı haqq savaşında deyil, eyni zamanda Birinci Qarabağ müharibəsində (1991-1994-cü illər) də Fransa dövləti və hökumətinin qərəzli münasibəti və ədalətsizliyi ilə üzləşib. Həmçinin bir neçə gün əvvəl parlamentin yuxarı Palatası olan Senat tərəfindən də müvafiq qətnamənin qəbul edilməsi Fransanın ədalət anlayışının nə qədər "ədalətli" olduğunu bir daha sübut edir.

Əvvəlcə Senat tərəfindən qəbul edilmiş qətnamə, indi də parlamentin aşağı palatasının belə bir layihəni müzakirəyə çıxarmaqla heç bir hüquqa və ədalətə sığmayan şərtlər irəli sürərək Azərbaycanı ittiham etməsi tarixi riyakarlıq və absurd kimi dəyərləndirilməlidir.

Təcavüzə məruz qalan Azərbaycanın deyil, terrorçu Ermənistanın yanında yer alan və onun Vətənimizə qarşı ərazi iddialarını dəstəkləyən Fransa, bununla növbəti dəfə beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozmaqda, erməni faşizmini açıq şəkildə müdafiə etməkdədir.

# "Müasir dövrdə çap mediası çətinliklərlə üzləşib" - Kamran Həsənov



***"Azərbaycanda çap mediasının üzləşdiyi əsas problem yayım və reklam məsələsi ilə bağlıdır".***

"Unikal" xəbər verir ki, bunu Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimat mərasimində bildirib.

Onun sözlərinə görə, bütün dünyada yeni texnologiyaların tətbiq edildiyi bir dövrdə media sahəsində də konseptual baxış tələb olunur:

"Müasir dövrdə bütün dünyada çap mediası çətinliklərlə üzləşib. Ölkəmizdə də bu belədir. Azərbaycanda əsas problem yayım və reklam məsələsi ilə bağlıdır. Ancaq hər zaman dövlətimiz medianın yanında olub. Hesab edirəm ki, belə dəstəyin göstərilməsi çox vacibdir".

# Qarabağa investisiya yatırmaq istəyənlərin sayı açıqlandı



***İşğaldan azad edilmiş ərazilərimiz aqrar sektorun inkişafının yeni təkanverici qüvvəsi kimi böyük potensiala malikdir. Qarabağ bölgəsinin malik olduğu təbii üstünlüklər, su ehtiyatları, əlverişli coğrafi mövqe və tarixi ixtisaslaşma təcrübəsi burada həyata keçiriləcək ağıllı kənd konsepsiyası ilə vəhdət şəklində aqrar sektorun inkişafının yeni keyfiyyət müstəvisinə qaldırılmasına imkan verəcək.***

Bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov 24-də "Məsləhət xidmətləri vasitəsilə aqro-turizm, aqro-biznes sahibkarlığın və ərzaq məhsullarının istehsalının təşviqi və yeni dəyər zəncirlərinin yaradılması və inkişafı'' layihəsi üzrə Bakı konfransında deyib.

KOBİA sədri bildirib ki, yerli və xarici sahibkarlar Qarabağda biznes fəaliyyəti həyata keçirmək üçün kifayət qədər maraq göstərirlər:

"Bu günə qədər, 1300-dən artıq müvafiq müraciət KOBİA tərəfindən qeydə alınıb. Daxil olan investisiya təkliflərinin təqribən 20%-i kənd təsərrüfatı və aqrar sektor ilə bağlıdır. Bu baxımdan, aqrobiznes və aqrar turizm sahəsində həyata keçirilmiş layihə əhəmiyyətli bir dövrə təsadüf edir və ümidvaram ki, sektorda yeni inkişaf meyllərinin və yanaşmaların tətbiqinin genişləndirilməsi baxımından öz töhfəsini verəcəkdir".

# Quru Qoşunları təlimlərə başladı

***Cari ilin döyüş hazırlığı planına uyğun olaraq Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Təlimə cəlb olunan birləşmə və hissələr müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilib, ehtiyat və təyinat rayonlarına çıxarılaraq idarəetmə orqanlarının ərazidə açılması təmin olunub.

Tapşırıqların icrası ilə bağlı bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilir, komandirlər tərəfindən qəbul edilmiş qərarların məruzələri dinlənilir.

Komanda-qərargah təlimlərinin keçirilməsində əsas məqsəd bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirməkdir.

Təlimdə qarşıya qoyulan tapşırıqlar hərbi qulluqçular tərəfindən müvəffəqiyyətlə yerinə yetirilir.

# Məmur oliqarxiyasına həlledici zərbə gözlənilir

## Gündəmdə inhisarçılığın və "kölgə iqtisadiyyatı"nın kökündən ləğvidir; yeni korrupsiya əməliyyatları və həbslər sürpriz sayılmayacaq



***Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30-cu ildönümü ilə bağlı tədbirdə bir sıra açıqlamalar verib.***

Deyib ki, ölkə iqtisadiyyatının şəffaflaşdırılması istiqamətində mübarizə tədbirləri davam edəcək. "Xoşagəlməz hallara qarşı mübarizə, "kölgə iqtisadiyyatı"nın həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır", - deyə dövlət başçısı bildirib.

Göründüyü kimi, ölkə başçısı inhisarçılığın, "kolgə iqtisadiyyatı"nın mövcudluğundan və bunun aradan qaldırılmasının vacibliyindən bəhs edib.

Dövlət rəhbərinin bu sözləri sadalanan neqativ halların tamamilə aradan qaldırılması və kökündən ləğv edilməsi istiqamətində yaxın gələcəkdə daha təsirli, həlledici addımların atılması yönündə xəbərdarlıq kimi də qiymətləndirilə bilər.

İnhisarçılığın, "kölgə iqtisadiyyatı"nın əsas sütunlarından biri məmur oliqarxiyasıdır. Düzdür, son illərdə həmin "sütunun" laxladılması istiqamətində kifayət qədər ciddi işlər görülüb. Bir zamanlar öz qüdrətli biznes imperiyaları ilə tanınan yüksək vəzifəli şəxslərin əksəriyyəti ya vəzifələrini, ya da vəzifələri ilə bərabər azadlıqlarını itiriblər. Onların ölkə iqtisadiyyatının inkişafında daha çox tormozlayıcı rol oynayan ailə şirkətləri, holdinqləri də artıq səhnədə deyillər. Bunda təəccüblü heç nə yoxdur - belə şirkətlər, holdinqlər onu yaradan, himayə edən məmurun korrupsiya pulları hesabına ayaqda dururdular. Həmin məmur vəzifəsini itirincə ailə şirkətinin də çökməsi, süqut eləməsi, zəifləməsi tamamilə məntiqəuyğundur. Lap "bağda ərik var idi" misalında olduğu kimi! Lakin digər tərəfdən Azərbaycanda məmur oliqarxiyasının tam ləğvinə də hələlik nail olunmayıb. Mütəxəssislərin fikrincə, Rəqabət Məcəlləsinin nəhayət ki, qəbul edilməsi həmin istiqamətdə atılan önəmli addımlardan biri ola bilər. Elə ölkə başçısının məlum çıxışını şərh eləyərkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da bu məqama toxunub. "Qeyd edim ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Rəqabət Məcəlləsinin qəbul ediləcəyini bəyan edib. Əslində, bu addım çoxdan atılmalı idi. Lakin bu gün də gec deyil. Bu məcəlləni qəbul edərək, məmur oliqarxiyasının və bazarda mövcud olan işbazların qanunsuz əməllərinin qarşısını ala bilərik. Əsas odur ki, ortada siyasi iradə var. Müvafiq qurumlar Prezidentin xəbərdarlığından nəticə çıxarmalı və bu istiqamətdə qəti hərəkətə keçməlidirlər", - deyə deputat vurğulayıb.

Dəfələrlə yazdığımız kimi, sözügedən məcəllənin Milli Məclisdən geri qaytarılmasının əsas səbəbi məmur oliqarxiyasıdır - onlar belə bir vacib sənədin qəbulunu bütün mümkün yollarla əngəlləməyə çalışıblar və hələlik istəklərinə nail olublar. Çünki sözügedən məcəllə inhisarçılığa, "kölgə iqtisadiyyatı"na, deməli həm də bu neqativ halların "tətikçisi" rolunu oynayan məmur binzesinə sarsıdıcı zərbə deməkdir.

Bir çoxlarının fikrincə, bu məcəllə qəbul edilsə belə onun işləkliyi sual altında qalacaq. Yəni məmur oliqarxiyası indi də həmin qanunun icrasını əngəlləmək üçün dəridən-qabıqdan çıxacaq. Ona görə də yaxşı olardı ki, ölkədə indiyədək götürülən xətt davam etdirilsin - büdcə pullarını mənimsəyərək onu ailə bizneslərinin qurulmasına, çiçəklənməsinə yönəldən vəzifəli şəxslər barədə bundan sonra da ciddi hüquqi ölçü götürülsün. Beləcə, tamamilə zəifləyən məmur oliqarxiyasının Rəqabət Məcəlləsini qeyri-işlək sənədə çevirmək ehtimalı bəri başdanca aradan qalxmış olar.

İstənilən halda ölkə başçısının məlum çıxışındakı mesajlar kifayət qədər açıqdır. Aidiyyatı qurumlar "kölgə iqtisadiyyatı"nın həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə tədbirləri görmək barədə düşünməlidirlər.

Düzdür, sadalan neqativliklərə istənilən ölkədə rastlamaq mümkündür. Ancaq məsələ onların miqyasını azaltmaq, iqtisadiyyat üzərində təsir imkanlarını minimuma endirməkdir. Belə görünür, hökumət artıq bu istiqamətdə yeni həmləyə hazırlaşır. Bu həmlənin nələrlə müşayiət olunacağını söyləyə bilmərik. Lakin çoxlarının təxmini eynidir - bizi hələ qarşıda çox korrupsiya ifşaları və antikorrupsiya əməliyyatları, bir çox məmur həbsləri gözləyir. Ta o vaxtadək ki, Azərbaycanda məmur oliqarxiyası "arxivə" göndərilsin, keçmişdə qalsın, inhisarçılıq, "kölgə iqtisadiyyatı" kimi ölkənin inkişafını "tormozlayan", təhdid edən zərərli vərdişlər aradan qalxsın, ən azı, tamamilə minimallaşsın...

***Toğrul Əliyev***

# İcra başçısından xəbərsiz alınan 80 min manatlıq rüşvət?!

## Göyçaydakı məmur həbsi ilə bağlı yeni suallar ortaya çıxıb



***Bu günlərdə Göyçay Rayon İcra Hakimiyyəti (RİH) başçısının şəhər inzibati ərazi dairəsi üzrə sabiq nümayəndəsi Rəşad Şükürovun cinayət işi üzrə məhkəmə istintaqı başladı.***

Şəki Ağır Cinayətlər Məhkəməsində hakim Nahid Mirzəyevin sədrliyi ilə keçirilən iclasda ittiham aktı elan olunub.

İttihamda göstərilib ki, Göyçay Rayon İcra Hakimiyyəti başçısının Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsində işləmiş Rəşad Şükürov İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyərkən rəhbərlik etdiyi strukturun digər vəzifəli şəxsləri ilə əlbir olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib. O, ayrı-ayrı vəzifəli şəxslərdən xidməti vəzifələrinin icrasına davam etmələri üçün rüşvət verməyəcəkləri təqdirdə işdən çıxarılacaqları ilə bağlı hədə-qorxu gələrək öz xidməti otağında onlardan müxtəlif məbləğlərdə rüşvət alıb.

Cinayət əməli üzrə dəymiş ziyanın 800 min manat olduğu müəyyən edilib.

Təqsirləndirilən şəxs ittiham üzrə özünü təqsirli bilməyib.

O, məhkəmə gedişində müxtəlif epizodlar üzrə ifadə verəcəyini deyib.

Qeyd edək ki, Rəşad Şükürov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) və 311.3.4 (rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Şükürov sonradan ev dustaqlığına buraxılıb.

Bəs Şükürova elan edilən ittihamlarla bağlı əsas suallar nədən ibarətdir? İlk növbədə onun 800 min manat rüşvət aldığı bildirilir. Kifayət qədər böyük rəqəmdir, xüsusilə də rayon yerində... Elə ona görə də sabiq icra nümayəndəsinin bu qədər pulu təkbaşına "yeməsi" ağlabatan sayılmır. Beləliklə, ilk sual: doğrudanmı, təqsirləndirilən şəxs bir belə vəsaiti özünə götürüb, ondan kiməsə, xüsusilə rayonun həmin vaxtkı rəhbərliyinə qara qəpik də çatdırmayıb? Nəzərə alsaq ki, Azərbaycan reallığında hansısa nazirdən, icra başçısından xəbərsiz onun rəhbərlik etdiyi qurumda quş da uça bilməz, elə isə sabiq icra nümayəndəsinin bu qədər rüşvəti "özfəaliyyət" olaraq aldığına inanmaq mümkündürmü?

İkinci sual: ittiham aktında bildirilir ki, Rəşad Şükürov sözügedən cinayətləri İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyərkən törədib. Yəni rüşvət əməliyyatları rayonun ozamankı rəhbərliyinin gözü önündə baş verib. Rüşvətin ümumi məbləğini də nəzərə alsaq, bu qanunsuzluqlardan həmin vaxt Göyçaya rəhbərlik etmiş şəxsin, yaxud ətrafının məlumatsız qalması nə qədər inandırıcıdır?

Üçüncü sual: ittiham aktında o da bildirilir ki, R.Şükürov sadalanan cinayət əməllərini rəhbərlik etdiyi struktur qurumun digər vəzifəli şəxsləri ilə əlbir olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib. Elə isə həmin şəxslər niyə azadlıqdadır?

Və dördüncü, eyni zamanda ən əsas sual: təqsirləndirilən şəxsin ayrı-ayrı vəzifəli şəxslərə xidməti vəzifələrinin icrasına davam etmələri üçün rüşvət verməyəcəkləri təqdirdə işdən çıxarılacaqları ilə bağlı hədə-qorxu gəldiyi bildirilir. Axı Şükürov həlledici söz sahibi deyildi ki, kimisə vəzifəyə təyin etsin, yaxud vəzifədən kənarlaşdırsın. Buna onun nə qədər səlahiyyəti çatırdı? Bəlkə, icra hakimiyyətinin şöbə müdiri olmuş bu adam özündən yuxarı vəzifə sahiblərinin səlahiyyətini mənimsəyibmiş?!

Göründüyü kimi, qaranlıq məqamlar yetərincədir. Lakin kimlərsə işin içindən sivişib çıxa biliblər. Təəssüf ki, Azərbaycan təcrübəsində belə hallara çox rast gəlirik. Məsələn, paytaxtın sabiq icra başçısı Hacıbala Abutalıbovun yaxın kadrı olmuş Rasim Quliyevin işini götürək. O, Hacıbala müəllimin mer olduğu dövdə Bakı Şəhər İcra Hakimiyyətində müxtəlif vəzifələr tutmuş, hətta Aparat rəhbəri işləmişdi.

Sonradan onun barəsində təşkilati-sərəncamverici funksiyaları yerinə yetirən vəzifəli şəxs kimi qanunsuz üstünlük əldə etmək məqsədilə BŞİH başçısının Nəsimi rayonu ərazisində ofis və yaşayış binalarının tikilməsinə dair 31 may 2018-ci il tarixli 346 nömrəli sərəncamını şəxsən imzalamasına, bununla da hansısa MTK-nın həmin ərazidə 1893-cü ildə inşa edilmiş yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunan yaşayış evinin olmasını nəzərə almadan ayrı-ayrı fiziki şəxslərə məxsus olan mənzillərin, yaşayış və qeyri-yaşayış sahələrinin qanunsuz olaraq söküntüsünə başlamasına, habelə tikinti və söküntü işlərinin aparılmasının digər əsas şərtlərinin pozulmasına səbəb olmasına əsaslı şübhələr müəyyən edildi və Quliyev həbs olundu. Lakin məhkəmə prosesində Abutalıbovla bağlı da kifayət qədər ilginc iddialar, ittihamlar ortaya çıxdı. Di gəl, keçmiş mer prosesdən tam kənarda qaldı.

Cəmiyyətdə belə hallar müsbət qarşılanmır, nəinki sadə vətəndaşlar, hətta media və ekspertlər də hansısa dövlət qurumunda kifayət qədər ağır cinayət əməlləri, qanunsuzluqlar törədilərkən həmin qurumun rəhbər şəxslərinin heç nədən məlumatı olmadığına inanmır, onların cəzadan kənarda qalmasını doğru saymır...

Bu yazını da məhz həmin məqamı əlaqədar qurumların bir daha diqqətinə çatdırmaq üçün qələmə aldıq.

Ümid edək ki, ölkədə rüşvət və korrupsiya ilə mübarizənin effektliliyini daha da artırmaq üçün gələcəkdə bu məqam nəzərə alınmağa başlanacaq...

***Sənan Mirzə***



# Vüqar Zeynalov sabiq məmurların yolu ilə gedir

## Övladına yarım milyon manatlıq toy edən icra başçısını nə gözləyir?

***Xəbər verildiyi kimi, Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov oğluna təmtəraqlı toy edib. Bu barədə ilk məlumatı Unikal.az yayıb.***

Bildirilib ki, 1000 nəfərlik zalda xeyli sayda məmur, qohumlar olmaqla, bəyin dostları da iştirak edib. O da bildirilib ki, toyda ingilis dilində mahnılar ifa edilib, rəqslər olunub. "Gülüstan Sarayında menyunun qiymətinin minimum 310 manat olduğunu nəzərə alsaq, məclisə 500 min manata yaxın pul xərclənib" - xəbərdə bildirilir.

Qeyd edək ki, Gülüstan Sarayı Prezidentin İşlər İdarəsinə məxsusdur və orada adətən dövlət tədbirləri keçirilir.

Xatırladaq ki, Vüqar Zeynalov yeni kadrlardan sayılır; 46 yaşlı icra başçısı bu vəzifəyə ölkədə genişmiqyaslı kadr və struktur islahatlarının genişləndiyi bir vaxtda - 2018-ci ildə təyin olunub. Ondan əvvəl üç il boyunca Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin rəisi vəzifəsində çalışan Zeynalovun təyinatı yeni kadrların önə çəkilməsi prosesinin tərkib hissəsi kimi xarakterizə edilirdi.

Lakin Vüqar müəllim gündəmə daha çox köhnə məmur korpusuna xas xəbərlə gəldi. Belə ki, əksəriyyəti tutduğu postan uzaqlaşdırılan bir çox yaşlı məmurlar özlərinin, ailə üzvlərinin dəbdəbəli həyatı, təmtəraqlı toyları, ad günləri, əyləncə məclisləri ilə diqqət mərkəzinə düşürdülər.

Məsələn, Bakı Lift İdarəsinin sabiq baş direktoru Qüdrət Şükürovu xatırlayaq - onun vəzifədən azad edilməsinin kökündə məhz övladına bahalı toy eləməsi dayanmışdı. Belə ki, Şükürovun ikinci dəfə ailə həyatı quran qızı Ayselə 400 min dollarlıq toy etməsi ciddi rezonans yaradmışdı. Paytaxtdakı liftlərin işləməsinə cavabdeh olan məmurun bu qədər pulu haradan əldə etməsi ciddi suallar doğurmuş, toy xəbəri yayıldıqdan az sonra Qüdrət Şükürov vəzifəsindən azad olunmuşdu. Və ya artıq ləğv edilmiş Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının sədri Rüfət Aslanlı bahalı ad günü məclisi ilə gündəmə gəlmişdi. Məhz həmin məlumatdan bir müddət sonra Aslanlının vəzifəsindən uzaqlaşdırıldığını da əlavə edək.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar.

Hətta məmurların bu cür dəbdəbəli, təmtəraqlı məclisləri ilə bağlı vəziyyət o həddə çatmışdı ki, ölkə başçısı çıxışlarında bu məsələyə bir neçə dəfə toxunmuş və belə vəzifəli şəxslərə ciddi xəbərdarlıq etmişdi. "Təmtəraqlı toylar, ad günləri, bahalı hədiyyələr - bunları yığışdırın. Bəsdirin. Və kim bunu eləyir, bilir kimi mən nəzərdə tuturam. Bu həm yerli icra orqanlarına aiddir, mərkəzi icra rəhbərlərinə də aiddir. Vəzifəli şəxslərin uşaqları quduğanlıq edirlər, insanları təhqir edirlər, özlərini apara bilmirlər", - deyə dövlət rəhbəri bildirmişdi.

Məhz Prezidentin xəbərdarlıqlarından və sərt cəza tədbirlərindən sonra məmurların, onların ailə üzvlərinin fantastik pullar xərclədikləri toylar, ad günləri kimi məclisləri ilə bağlı xəbərlər səngidi. Vəzifəsini, azadlığını itirməkdən qorxan məmurlar belə məclislərdən uzaq durmağa başladılar.

Bütün bunların fonunda, üstəlik, yeni məmur korpusuna aid edilən bir icra başçısının yarım milyon manatlıq toy xəbəri ilə gündəmə gəlməsi təəccüb doğurur. Görünür, Vüqar müəllim keçmiş məmurların belə dəbdəbəyə, təmtərağa görə hansı aqibəti yaşadığından xəbərsizdir. Elə cəmi dörd ildir icra başçısı işlədiyi halda 500 min manatlıq toy etməyə pulu hardan tapdığı barədə suallarla üzləşəcəyindən də... Hər halda, indi maraq yaradan yeganə sual odur ki, sabiq məmurların yolu ilə gedən icra başçısı bu dəbdəbəyə görə cəza alacaq, ya yox?!

***Murad***

# Şamaxıda ərzaq mağazasında nöqsanlar aşkarlandı

***Şamaxıda fəaliyyət göstərən ərzaq mağazasında nöqsanlar aşkarlanıb.***

Bu barədə "Unikal"a Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, agentliyin Şamaxı regional bölməsinin əməkdaşları tərəfindən rayonun Şəhriyar qəsəbəsində fəaliyyət göstərən fiziki şəxs Sarxanov İldırım Məmməd oğluna məxsus ərzaq mağazasında planlı yoxlama aparılıb.

Yoxlama zamanı müəssisədə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu, saxlama yerlərində təmizliyə nəzarətin zəif olduğu aşkar edilib. Həmçinin, üzərində Azərbaycan dilində etiket məlumatları olmayan və yararlılıq müddəti bitmiş məhsulların satışının həyata keçirildiyi müəyyən olunub.

Nöqsanlarla bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülərək qeyd olunan mallar satışdan çıxarılıb və müəssisənin rəhbəri inzibati məsuliyyətə cəlb olunub.

# Qanunsuz ağackəsmə ilə bağlı cinayət işləri başlandı

***Qanunsuz ağackəsmə faktları ilə bağlı cinayət işləri başlanıb.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib. Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində Bakı şəhəri, Cəlilabad və Lerik rayonlarının ərazilərində qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırma aparılıb.

Araşdırmalarla müəyyən edilib ki, Bakı şəhəri, Səbail rayonunda abadlaşma işləri aparılarkən şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə meşə fonduna daxil olmayan, Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin Cəlilabad rayonu ərazisində, Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinin Lerik rayonu ərazisində meşə fonduna daxil olan ümumilikdə 107 ədəd ağacın kəsilməsi nəticəsində ekosistemə 7 min manatdan çox ziyan vurulub.

Fakt üzrə Cinayət Məcəlləsinin 259.1 və 259.2.3-cü maddələri ilə (qanunsuz ağac kəsmə) cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilmiş, həmçinin ziyanın ödənilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülüb.

# Cəbrayılda qanunsuz ov edənlər saxlanıldı

***Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində qanunsuz ov edən şəxslər müəyyən olunublar.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Cəbrayıl RPŞ-nin əməkdaşları tərəfindən keçirilmiş tədbirlərlə rayon sakinləri M.Alıyev və E.Rüstəmov 7 saylı qəsəbə ərazisində qanunsuz ov etdikləri müəyyən olunub. Həmin şəxslərdən 2 ədəd ov tüfəngi və ovladıqları çöl heyvanı aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# Keçmiş məhkum ödəmə terminallarından 10 min manata yaxın pul oğurladı

***Keçmiş məhkum ödəmə terminallarından 10 min manata yaxın pul oğurladı***

Binəqədi RPİ 4-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxtda pul ödəmə terminallarını müxtəlif üsul və vasitələrlə talayan şəxs müəyyən olunub.

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, Binəqədi rayonunda 2864, 1157, 4496 manat və Sabunçu rayonunda 800 manat olmaqla ödəmə terminallarından oğurluq etməkdə şübhəli bilinən Şəmkir rayon sakini, əvvəllər quldurluğa görə məhkum olunan Qəzənfər Babayev saxlanılaraq məsuliyyətə cəlb edilib.

Araşdırma aparılır.

# Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalandı

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalanıb.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov "Unikal"a bildirib ki, imzalanma mərasimində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov, sədr müavini Rafiq Aslanov, sədrin müşaviri Əsəd Şirinov və cəmiyyətin digər nümayəndələri iştirak ediblər.



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Yengicə su anbarının tikintisinin əhəmiyyətindən danışıb, yeni su anbarının Qəbələ rayonunda kənd təsərrüfatının, turizmin, ümumiyyətlə, rayon iqtisadiyyatının inkişafına böyük təkan verəcəyini bildirib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan şanlı Qələbədən də danışan Z.Mikayılov, Azərbaycan dövlətinin azad olunan ərazilərdə böyük quruculuq, tikinti-bərpa işləri apardığını diqqətə çatdırıb və bu işlərdə Türkiyə şirkətlərinin mühüm rol oynadığını vurğulayıb.

"SURYAPI AZ" MMC-nin direktoru Cem Hakan Elmas çıxış edərək, Vətən müharibəsində qazanılan Qələbə münasibətilə bir daha təbriklərini çatdırıb və bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinin onda yüksək təəssürat doğurduğunu deyib.

Cem Hakan Elmas Yengicə su anbarının tikintisinin uğurla həyata keçiriləcəyinə və əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

Sonra Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalanıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 27 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına Əlavə 2-də Yengicə su anbarının tikintisi də nəzərdə tutulub.

Yengicə su anbarının tikinti işləri ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq tender keçirilib və tenderin nəticəsi olaraq qalib şirkət "SURYAPI AZ" MMC və "SurYapı Endüstri Sanayi ve Ticarət Anonim" şirkətinin ölkəmizdəki nümayəndəliyinin birgə müəssisəsi müəyyən olunub.

Yengicə su anbarının tikintisi işləri 2022-2024-cü illərdə həyata keçiriləcək. Anbarın tikintisinə başlanılması üçün Səhmdar Cəmiyyət ilə "SURYAPI AZ" MMC və "SurYapı Endüstri Sanayi və Ticarət Anonim" şirkətinin ölkəmizdəki nümayəndəliyi arasında podrat müqaviləsi bağlanılıb.

Yeni anbarın ümumi su tutumu 17,5 milyon kubmetr, istifadə olunan həcmi isə 12,4 milyon kubmetr nəzərdə tutulub. Su anbarı tikildikdən sonra Qəbələnin aran hissəsində 10 min hektar sahənin, o cümlədən 3388 hektar sahənin su təminatı yaxşılaşacaq, 6612 hektar yeni torpaq sahəsinin suvarılması təmin olunacaq. Bu isə həmin torpaqlarda məhsuldarlığı artırmaqla yanaşı, ildə 2-3 dəfə əkin aparmağa imkan verəcək.

# Aqrar sığorta üzrə təlim keçiriləcək

***Aqrar Sığorta Fondu aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün təlimlər keçirəcək.***

"Unikal" xəbər verir ki, təlimlərdə iştirak etmək istəyən namizədlərin sənədlərinin qəbulu dekabrın 1-dən dekabrın 30-dək davam edəcək. Təlimlər 2023-cü il yanvar ayının 16-da başlayacaq və Aqrar Sığorta Fondunun inzibati binasında Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti 175 ünvanında keçiriləcək.




"Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"na əsasən imtahanlar bir mərhələdə keçiriləcək. İmtahan suallarının yalnız təlim proqramını əhatə edir, eyni zamanda peşə təhsilli şəxslərə də (müvafiq sahə üzrə 5 illik iş təcrübəsinə malik olduqda) imtahanlarda iştirak imkanı yaradılır.

Təlimlər aşağıdakı növ sertifikatların verilməsi üçün müstəqil ekspert olmaq istəyən şəxslərin Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək imtahanlara buraxılması üçün təşkil olunur:

1. Kənd təsərrüfatı bitkilərinin və bitkiçilik məhsullarının (çoxillik əkmələr də daxil olmaqla) sığortası üzrə müstəqil ekspert sertifikatı;
2. Kənd təsərrüfatı heyvanlarının və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanların sığortası üzrə müstəqil ekspert sertifikatı;
3. Akvakultura məhsullarının sığortası üzrə müstəqil ekspert sertifikatı.

Təlimdə 71 ixtisas üzrə ali, orta ixtisas və ya peşə təhsilli şəxslər iştirak edə bilərlər.

5.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağda təhsilin müasir dövrü

## İlqar Orucov: "İşğal dövründə çətin vəziyyətdə təhsil alan məcburi köçkün uşaqlar ən müasir təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər"



***Bir neçə gün öncə Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq edib. Bu Proqramda işğaldan azad edilmiş torpaqlarımızda aparılacaq böyük quruculuq işləri öz əksini tapıb.***

Tədbirlər Planına əsasən, tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi planlaşdırılır. 2025-ci ilədək 10 270, 2026-cı ilədək isə bundan daha çox ailənin köçürülməsi nəzərdə tutulur. Təhsil xalqın gələcəyi olduğundan, işğaldan azad edilmiş torpaqlarımızda insan kapitalına, təhsilin inkişafına xüsusi diqqət yetiriləcək. Sənədin hədəf göstəricilərində təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması öz əksini tapıb. 2026-cı ilədək Zəngilan rayonunun Ağalı kəndində əhalinin geri qayıdışına əsaslanaraq mərhələli şəkildə ümumi (bölgələrin xüsusiyyətlərini nəzərə alaraq müxtəlif təmayüllü məktəblər, liseylər və gimnaziyalar, internat tipli xüsusi ümumtəhsil məktəbləri, inteqrasiya təlimli internat tipli məktəblər) və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və bərpası nəzərdə tutulub.

Həmçinin işğaldan azad olunmuş torpaqlarımızda iri şirkətlər tərəfindən məktəbəqədər və peşə təhsili müəssisələrinin tikintisinin təşviq edilməsi, bu ərazilərdə ölkənin müvafiq ali təhsil müəssisələrinin filiallarının yaradılması ilə bağlı tədbirlər görülməsi sənəddə qeyd olunub. Ərazilərin iqtisadi potensialı və əmək bazarının tələbləri nəzərə alınmaqla, peşə və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təmin edilməsi, nüfuzlu xarici təhsil müəssisəsinin filialının yaradılması istiqamətində təşviqedici tədbirlər görülməsi, regional tibbi təhsil müəssisələrinin tikintisi də proqramın tərkib hissəsidir.

Proqramda nəzərdə tutulan quruculuq tədbirlərindən bəziləri artıq icra edilib. Tərtər rayonunun Suqovuşan kəndində 144 şagird yerlik tam orta məktəbin əsaslı təmiri həyata keçirilib. Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin yeni tədris ilində təhvil verilməsi nəzərdə tutulub. Bu məktəbdə 960 şagird təhsil alacaq. Bundan başqa, artıq Şuşa Real Məktəbinin bərpa-gücləndirmə və əsaslı təmiri ilə bağlı konsept layihəsi hazırdır. Şuşa Real Məktəbinin layihələndirmə işlərinə başlanılıbdır.

Ağdam şəhərində 960 şagirdin təhsil ala biləcəyi 1 saylı şəhər tam orta məktəbinin tikintisi işlərinə başlanılıb. 2022-ci ilin sonunda həmin məktəbin təhvil verilməsi planlaşdırılıb.

Füzuli şəhərində də 960 şagird yerlik tam orta məktəbinin layihələndirilməsi və tikintisi ilə əlaqədar layihə-smeta sənədləri hazırlanır. Bundan başqa, Füzulidə 700 yerlik peşə liseyinin təməli qoyulub.

Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbinin tikilməsi də planlaşdırılıb. Həmin məktəbdə də 960 şagird təhsil almalıdır. Rayonun Yuxarı Mərcanlı kənd məktəbinin təməli isə artıq qoyulub. Orada da 960 şagird təhsil alacaq.

Bu faktlar onu göstərir ki, işğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyacları artıq müəyyənləşdirilib, onların qiymətləndirilməsi aparılıb. Bununla bütövlükdə Qarabağda optimal təhsil ocaqlarının yaradılmasına nail olmaq mümkündür. Həm də təhsilin müasir səviyyədə təşkili üçün geniş imkanlar yaranır.

Qarabağda təhsilin yenidən qurulması istiqamətində işlər konkret olaraq "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun aparılır. Məlumdur ki, bu strategiyanın məqsədi Azərbaycanın modernləşdirilməsi üçün lazım olan insan kapitalının inkişaf etdirilməsi prinsipini reallaşdırmaqdan ibarətdir. Bu, müasir təhsil baxımından olduqca vacib məqamdır. Çünki tarixin indiki mərhələsində insan kapitalı hər bir cəmiyyət üçün strateji əhəmiyyət kəsb edir.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov deyir ki, işğaldan azad olunmuş ərazilərdə qayıdışın təmin olunması üçün qəbul olunmuş proqramda əhalinin öz doğma yurdlarına qayıtması üçün bütün şəraitin təmin olunması nəzərdə tutulub. İ.Orucov bildirib ki, bu proqram çərçivəsində qayıdışla bağlı proseslərin həyata keçirilməsi üçün məktəb infrastrukturunun qurulması, ümumilikdə təhsillə bağlı bir sıra məsələlər öz əksini tapıb: "Bərpa proseslərindən danışırıqsa, burada təhsil çox vacibdir. Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərə qayıdış və bərpa prosesində ən müasir yeniliklərdən istifadə edilir, bunların təhsilsiz icrası mümkün deyil. Buna misal kimi "Ağıllı kənd", Ağıllı şəhər" layihələrini göstərmək olar. İşğal dövründə kənd və şəhərlərimizdə bütün infrastruktur dağıdılıbdır. Təhsil infrastrukturu da tamamilə məhv edilib. Bu Proqramda təhsillə bağlı məsələlərin əks olunması, yeni məktəbəqədər, ümumtəhsil müəssisələri, eləcə də ali məktəblərin inşası vacib məqamdır. Səviyyəli təhsilin təmin olunması, həmin bölgənin inkişafına təsir edəcək. 30 il işğalda saxlanılan torpaqlarımızda təhsillə bağlı bütün infrastruktur ən müasir formada yenidən qurulacaq. Bu isə gələcəkdə həmin bölgədə təhsilin keyfiyyətinə müsbət təsir edəcək. İşğal dövründə çətin vəziyyətdə təhsil alan məcburi köçkün uşaqlar ən müasir təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Bu il Şuşa, Ağdam və Füzuliyə 20 min şəxs səfər edib

***Şuşa və Ağdam şəhərlərinə ilk müntəzəm avtobus marşrutları yanvarın 24-də istifadəyə verilib.***

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən verilən məlumata görə, Füzuli istiqamətinə isə ilk müntəzəm avtobus reysi 25 iyun tarixində həyata keçirilib.

Bu günədək ümumilikdə 432 reys həyata keçirilib, 19950 nəfər Şuşa, Ağdam və Füzuli şəhərlərinə səfər edib.

# Azərbaycanda veteran jurnalist vəfat edib




***Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin (AVMVİB) Mətbuat xidmətinin rəhbəri, jurnalist, Qarabağ qazisi Xəqani Rzaquliyev vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə Qarabağ qazisi Rey Kərimoğlu bildirib.

Qeyd edək ki, Xəqani Rzaquliyev 9 noyabr 1963-cü ildə Ağdərə rayonunun Xatınbəyli kəndində anadan olub.

1978-1982-ci illərdə Şuşa şəhəri Mədəni Maarif Məktəbini, 1994-cü ildə isə Bakı Dövlət Ünversitetinin jurnalistika fakültəsini bitirib. O, 1982-1984- cü illərdə Sovet ordusunun Ukrayna respublikasında yerləşən hərbi hissədə mühəndis-istehkamçı kimi müddətli həqqi hərbi xidmətdə olub. Müxtəlif illərdə, müxtəlif vəzifələrdə - Ağdərə rayonunun Xatınbəyli kəndində hərbi rəhbər (1987-1989), Ağdərə rayonunun Gəncxana qəsəbəsində 21 yaşında məktəb direktoru (1984-1987), "Gənclik" jurnalında ədəbi işçi və şöbə müdiri (1989-1994) vəzifələrində çalışıb.

X.Rzaquliyev Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin yaradılmasında iştirak edib və "Vətən Müharibəsi" adının seçilməsi təklifi onun adıyla bağlıdır.

O, Birinci Qarabağ müharibəsində iştirak edib və 1992-ci il martın 12-də ağır yaralanıb.

Allah rəhmət eləsin!

# DİN rəsmisi xanım sürücülərə xəbərdarlıq etdi

***"Sürücülərin, xüsusilə xanım sürücülərin diqqətinə! Yolayrıclarında, parkinq və dayanacaqlarda şəxsi əşyalarınızı avtomobilin görünən yerlərində - oturacaqların üstündə saxlamayın".***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

DİN rəsmisi bildirib ki, bu hal, həmin əşyaların talanması ilə nəticələnə bilər: "Avtomobildən düşərkən qapıları və şüşələri bağlamağı unutmayın. Avtomobilləri işıqlandırılan, müşahidə kameralarının olduğu küçə və mühafizə olunan dayanacaqlarda saxlamağa üstünlük verin".



# Şeyx Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri ilə görüşüb

***Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Mərakeş Krallığının Fəs şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının IX Qlobal Forumunda iştirakı çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri ilə görüşüb.***

Bu barədə "Unikal" Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən məlumat verilib.

"Sülh Alyansına Doğru: Vahid bəşəriyyət olaraq birlikdə yaşamaq" mövzusunda forum Mərakeş Krallığının ali dəstəyi və ev sahibliyi, BMT-nin Baş katibi Antonio Quterreşin iştirakı, təşkilatın Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinosun və qərargahı Azərbaycanda yerləşən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib. Forumda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa, ICESCO-nun sabiq Baş direktoru Əbdüləziz əl-Tüveycri, Gürcüstanın sabiq Prezidenti Giorgi Marqvelaşvili, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov, Çexiyanın sabiq Baş naziri Yan Fişer, Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi Əmr Musa, İsrailin sabiq xarici işlər naziri Tzipi Livni, Gürcüstanın sabiq baş nazirinin müavini Eka Tkeşelaşvili, BMT-nin 73-cü və 75-ci Baş Assambleyalarının Prezidentləri Maria Fernanda Espinoza və Volkan Bozkır iştirak ediblər.

Şeyxülislam Allahşükür Paşazadə Mərkəzin üzvləri ilə görüş zamanı Azərbaycanın 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın hərbi təcavüzünə son qoyaraq, dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünü bərpa etdikdən sonra işğal dövründə törədilmiş vandalizm aktları nəticəsində dağıdılmış və təhqirə məruz qalmış dini-mədəni abidələrimizin, məscidlərlə yanaşı digər dini məbədlərin bərpa edilməsi, aparılan genişmiqyaslı yenidənqurma işləri ilə bağlı məlumat verib.

Hərbi əməliyyatların iki il öncə başa çatmasına baxmayaraq Ermənistanın ərazilərimizi tərk edərkən həyata keçirdiyi genişmiqyaslı minalama əməliyyatları nəticəsində 250 nəfərin həlak olması, yüzlərlə insanın yaralanması, buna baxmayaraq Ermənistanın minalama xəritələrini təqdim etməkdən yayınması faktı görüş iştirakçılarının diqqətini çəkib. Vurğulanıb ki, Azərbaycanın qalib tərəf olduğu halda, yenə də sülhə dəvət edən tərəf olması olduqca təqdirəlayiqdir.

Görüş iştirakçıları Azərbaycanın multikultural modelinin unikallığını xüsusi qeyd edərək ölkəmizdə hökm sürən dinlərarası harmoniyanın və yüksək səviyyəli dövlət-din münasibətlərinin bütün dünya üçün örnək olduğunu dilə gətiriblər.

# "E-Köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimatı keçirilib

***Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və Media Təhlil Mərkəzinin tərəfdaşlığı ilə "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının ictimaiyyətə təqdim olunması ilə bağlı tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ümummilli lider Heydər Əliyev və Vətən müharibəsi şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Təqdimat mərasimində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid və ölkədə fəaliyyət göstərən çap mediasının rəhbərləri, həmçinin ictimaiyyət nümayəndələri iştirak edirbər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, dövlət yazılı medianın inkişafına hər zaman dəs-



tək göstərir: ""E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platforması bu dəstəklərdən biridir. Müasirlik, yenilik günün tələbidir və buna uyğunlaşmaq lazımdır. "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platforması qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi və digər innovativ yeniliklərin sahədə yaratdığı ehtiyaclar, müşahidə edilən müasir tendensiyalar nəzərə alınaraq hazırlanıb".

Əhməd İsmayılov qəzet saytlarının yenidən qurulması prosesinin artıq başa çatdığını qeyd edib. Vurğulayıb ki, media subyektlərinin iqtisadi cəhətdən gücləndirilməsi MEDİA-nın başlıca məqsədlərindəndir. Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov isə vurğulayıb ki, "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platforması müasir tələblərə cavab verə biləcək bir platformadır:

"Prezident İlham Əliyevin media sahəsində islahatlarla bağlı verdiyi Fərmandan ötən 2 il ərzində bu sahədə xeyli dəyişikliklər baş verib. O cümlədən "Media haqqında" Qanun qəbul edilib". Çap mediasının üzləşdiyi problemlərə diqqət çəkən Prezident Administrasiyasının məsul əməkdaşı son bir il ərzində ölkədə bu sahədə müəyyən müsbət işlər görüldüyünü də diqqətə çatdırıb.

Kamran Həsənov media sahəsində həyata keçirilən islahatların tərkib hissəsi



olaraq çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlərin görülməsinin vacibliyini vurğulayıb. Daha sonra "Rəqəmsal dövrdə ənənəvi çap mediası: Müasir oxu vərdişləri və transformasiya perspektivləri" mövzusunda panel sessiya keçirilib. Panel sessiyaya moderatorluq edən millət vəkili, "Azernews" qəzetinin baş redaktoru Sevil Mikayılova bildirib ki, "E-köşk" platforması cəmiyyətdə oxu vərdişlərinin inkişaf etdirilməsinə, ənənəvi medianın rəqəmsallaşdırılmasına dəstək göstərəcək.

Sessiyada çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid bu platformanın çap mediası subyektlərinin iqtisadi dayanıqlılığının artırılması, ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması istiqamətində innovativ addım olduğunu qeyd edib. "Media Təhlil Mərkəzi" İctimai Birliyinin baş mütəxəssisi Yunis Orucov çıxışında texniki imkanlar baxımından onlayn media ilə bərabər çap mediasının inkişafına kömək məqsədilə "E-köşk" platformasının yaradılmasının təqdirəlayiq addım olduğunu diqqətə çatdırıb.

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev və "Respublika" qəzetinin baş redaktoru Hümbət Musayev də platformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsindən, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından istifadə etməyə şərait yaratmasından danışıb.

Daha sonra Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri şöbəsinin müdiri Ləman İsgəndərova platformanın üstünlüklərini, əhatə dairəsini, məqsədlərini əks etdirən təqdimatla çıxış edib. "Mass Solution" şirkətinin dəstəyi ilə hazırlanan "E-köşk" platformasının istifadə təlimatı, eyni zamanda cari müddətə qədər platformada hesab yaratmış redaksiyalara dair video-çarxlar nümayiş etdirilib.

"E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimat mərasimi çərçivəsində yaxın gələcəkdə Medianın İnkişafı Agentliyinin, Media Təhlil Mərkəzinin, "EDUAZ co" MMC-nin və Anadolu Agentliyinin birgə əməkdaşlığı ilə "EDU.AZ" platforması üzərindən jurnalistlər üçün onlayn təlimlərin təşkil ediləcəyi barədə məlumat verilib.

Layihə ilə bağlı təqdimatla çıxış edən "EDUAZ co" MMC şirkətinin layihə meneceri Lalə Həsənova bildirib ki, jurnalistlərin peşəkarlığının artırılması, bu sahədə yeni



tendensiyaların öyrənilməsi məqsədilə medianın istifadəsinə veriləcək onlayn təlim platforması daha geniş auditoriyanı əhatə edəcək, vaxta qənaət edilməsinə şərait yaradacaq, məkan və zamandan asılı olmayaraq təlimlərdən faydalanma və rahat funksionallıqdan istifadə imkanı təqdim edəcək.

Sonra "Hürriyet" qəzetinin xəbər koordinatoru Fırat Karadeniz çap mediası məhsullarının təkmilləşdirilməsi və mediada peşəkarlığın artırılması üçün yeni tendensiyaların öyrənilməsi ilə bağlı çıxış edib. Tədbir çərçivəsində Fırat Karadenizin çap mediası subyektlərinin nümayəndələri üçün "Çap mediasında yeni texnologiyaların tətbiqi: innovativ biznes modelləri, müasir inkişaf tendensiyaları"; "Çap mediasında yayımlanan məzmunun yeni formatlara uyğunlaşdırılması" mövzularında təlimi də keçirilib.

Qeyd edək ki, "E-köşk" platformasının yaradılma məqsədi çap mediasının ekoloji və iqtisadi dayanıqlılığını artırmaq, ənənəvi medianın rəqəmsallaşmasını təşviq etmək, informasiya cəmiyyətinə keçidi sürətləndirməkdir.

# Saxlanılan şəxslərə işgəncə verilir? - Baş prokuror açıqlama



***Baş prokuror Kamran Əliyev ölkədə saxlanılan şəxslərə işgəncə verilməsi ilə bağlı iddialara münasibət bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə o, Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının iclasında danışıb.

Baş prokurorun sözlərinə görə, təqsirləndirilən şəxslər, əsasən, məhkəmə istintaqı zamanı işgəncə faktları ilə bağlı ifadələr verirlər:

"Adətən narkotik işlərində saxlanılan şəxslər saxlanıldıqları və ya istintaq dövründə işgəncələr aldığı ilə bağlı ifadələr verir. Bu məsələlərdə prokurorluq orqanları çox diqqətli olmalıdır. Çünki bəzən təqsirləndirilən şəxslər məsuliyyətdən özünü kənarda saxlamaq məqsədilə bu yola əl atırlar. Bu məsələlər çox ciddi şəkildə araşdırmalıdır".

# Azərbaycanın Rəqəmsal Məcəlləsi hazırlanacaq



***Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsi hazırlanacaq.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmanda əksini tapıb.

Fərmana əsasən, Nazirlər Kabineti beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, rəqəmsal inkişaf sahəsində beynəlxalq və ölkədaxili təcrübə əsasında "Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsi"nin layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.



# Rayonlarda selə qarşı mübarizə tədbirləri görülür

***Göygöldə torpaq məcralı kanal beton üzlüyə alınır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi tərəfindən Göygöl rayonunda uzun illər torpaq məcralı kanal kimi istifadə olunmuş Ərəbli kanalında beton işləri görülür.***



Aparılan tədbirlər zamanı rayon üçün suvarmada xüsusi rolu olan kanalın sağ və sol sahilinə beton üzlük çəkilir. Ötən əsrin 50-ci illərində çəkilmiş kanal uzun müddət istismar olunduğundan kanalda suvarma suyu itkilərə məruz qalırdı. Kanala beton üzlüyün çəkilməsi üçün 2 aya yaxın bir müddətdə kanalın yaxınlığında olan qayalıqların və iri daşların bir hissəsi kəsilərək yol salınıb, daha sonra kanalda beton işlərinə başlanılıb.

Kanal ümumilikdə 1000 hektara yaxın əkin sahəsininin suvarılmasını asanlaşdıracaq. Eyni zamanda bu kanaldan kənd əhalisi həyətyanı sahələrini suvarmaq üçün də istifadə edə biləcək.

Ərəbli kanalın uzunluğu 25.3 km-dir. Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi tərəfindən bu il üçün kanalın 2 min metrə yaxın hissəsinin beton üzlüyə alınması nəzərdə tutulub. Bununla yanaşı kanal üzərində olan hidrotexniki qurğular da təmir olunur. Qeyd edək ki, Ərəbli kanalının beton üzlüyə alınması ilə su itkisi minimuma endiriləcəkvə su istifadəçiləri sudan daha asan istifadə edə biləcəklər.

Zaqatalada selə qarşı mübarizə tədbirləri görülür. Dilqəm Şərifov bildirib ki, Zaqatalanın dağ çaylarında sel sularına qarşı mühafizə tədbirləri aparılır. Zaqatala Melioservis İdarəsi bu işləri rayon ərazisindən axan Muxax çayda həyata keçirir. Mənbəyini Böyük Qafqaz sıra dağlarından götürən Muxax çayı zaman-zaman sel gətirən çay olduğundan əkin sahələrini, yaşayış məntəqələrini, meşə zolağını və yaxınlıqdan keçən magistral yolu təhlükədə qoyurdu. Əsasən yaz və payız aylarında çayda suyun səviyyəsi artır, əksər vaxtlarda isə bu hal sel gəlməsi ilə nəticələnirdi. Hazırda bu kimi problemlərin aradan qaldırılması üçün idarənin texnikaları çayın məcrasına cəlb olunub.

Muxax çayının əhatəsində 12 kənd yerləşir. Bu kəndlərdə isə 30 min nəfərə yaxın əhali yaşayır. Həmin ərazilərdə yaşayan sakinlərin təhlükəsizliyini təmin etmək, əkdikləri kənd təsərrüfatı bitkilərini qorumaq üçün texnikalar vasitəsi ilə çay məcraları mütəmadi olaraq təmizlənir. Bundan başqa rayon ərazisindən keçən Tala çayda, Qax rayonu ərazisində Kürmük çayda və Qara çayda bu işlər davam edir. Hazırda Qara çayın məcrası təmizlənir, çaya gələn lilli suyun maneəsiz olaraq kənd ərazilərindən ötüb keçməsi təmin olunur.

Qeyd edək ki, Zaqatala Melioservis İdarəsi Zaqatala və Qax rayonları ilə yanaşı Beyləqan rayonunda P-1 və P-2 kanallarının lildən təmizlənməsi işlərini yekunlaşdırıb. Hazırda idarənin texnikaları Qəbələ rayonu ərazisində suvarma kanallarını lildən təmizləyir. Göygöldə isə su itkisinin qarşısının alınması məqsədilə kanalın beton üzlüyə alınması işləri görülür.

Ağsuda Maşın Qolu kanalının 1200 metr hissəsi beton üzlüyə alınıb. Dilqəm Şərifov bildirib ki, Ağsu Suvarma Sistemləri İdarəsi 37071 hektar suvarılan torpaq sahəsinə xidmət edir. Bu sahələrin suvarılması üçün 967 km suvarma kanalından istifadə olunur. Bunlardan 64 km-i beton kanallardır. Hər il olduğu kimi bu ildə idarə tərəfindən kanalların beton üzlüyə alınması prosesi davam edir. Hazırda rayonun əsas suvarma kanalı sayılan Maşın Qolu kanalında beton işləri həyata keçirilir. Uzunluğu 36 km-ə yaxın olan bu kanalın son illər artıq 10 km-i beton üzlüyə alınıb. Bu da kanalın xidməti ərazisində olan 10 min hektardan artıq əkin sahəsinin suvarılmasını yaxşılaşdırıb. 1980-ci ildən istifadəyə verilən Maşın Qolu kanalının beton örtüyü uzun illər istismar olunduğundan bəzi hissələri yararsız vəziyyətə düşmüşdü.

Ağsu Suvarma Sistemləri İdarəsi çay məcralarının təmizlənməsi, yaşayış və əkin sahələrinin sel sularından mühafizəsi üçün daş-beton bəndlərinin çəkilməsi və təmiri işlərini də həyata keçirir. İdarənin balansında olan 6700 metr uzunluqda daş beton bənddən Ağsu çayda 500 metrdən artıq hissəsi təmir olunub. Ondan 100 paqonometri əsaslı, 70 paqonometri isə cari təmir edilib. Bundan başqa çaylarda 95 min kub metr məcra təmizləmə işləri görülüb, 49 ədəd hidrotexniki qurğu təmir olunub. Suvarma kanalları isə 650 min kub metr həcmdə lildən təmizlənib, beton və nov kanallarda təmir işləri aparılıb.

Ağsu rayonunda suvarma mənbələri Girdimançay, Ağsuçay, Yuxarı Şirvan Kanalı və Cavanşir su anbarıdır. Bu il Ağsu Suvarma Sistemləri İdarəsi tərəfindən rayon ərazisində əkilən kənd təsərrüfatı bitkiləri 3 dəfə suvarılıb.

***Hüseyn İsgəndərov***



# Vüsalın qəhrəmanlıq dastanı

***Astaranın Alaşa kəndində dünyaya göz açan Vüsal Üzeyir oğlu Nehmətovun adı çəkiləndə burada böyük də, kiçik də qürur hissi keçirdir. Çünki Vüsal İkinci Qarabağ müharibəsində 30 il düşmənə əsir düşən, Azərbaycan xalqının doğma, əzəli torpaqlarının azadlığı uğrunda hünər göstərərək 33 yaşında şəhidlik zirvəsinə ucalmışdır.***

Onun keçdiyi ömür yolu qısa olsa da, başdan-başa Vətənə sevgi, torpağa məhəbbətdir. Astaralılar öz qəhrəman oğlunu ürəklərində yaşatmaqla bərabər, dövlət də ölümündən sonra Vüsal Üzeyir oğlunu "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallara layiq görübdür.

Fəqət, uşaqlıqdan Vətən sevgisini bütün sevgilərdən üstün bilən Vüsal Üzeyir oğlu 2005-ci ildə onun keşiyini çəkməyə yollanır. Öz övladlıq borcunu ilk gündən ləyaqətlə, mərdliklə yerinə yetirən bu təmiz ürəkli, sədaqətli gəncin başına əsgər yoldaşları and içirlər. Vətəni yaşatmaq üçün onun bir ovuc torpağına dönməyə hazır olan Vüsal yağı düşməndən qisas almaq məqsədilə həqiqi xidmətdən sonra ömrünü hərbiyə bağlayır. Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində "Gizir hazırlığı" kursunda oxuyur, tankçı ixtisasına yiyələnir. Təlimlərdə nümunəvi hərbiçi kimi xüsusi peşəkarlıq göstərir, Vətənin təmənnasız müdafiəçisinə çevrilir. Və son qarış torpaqlarımızın azad olunacağı günədək yağı düşmənlə döyüşəcəyinə and içir.

İkinci Qarabağ müharibəsi başlanan andan Vətənin güvəndiyi, qeyrətli oğullardan biri də məhz Vüsal olur. Ən qaynar nöqtələrdə erməni dığasından çəkinmədən, qorxmadan odun-alovun içinə girir. Necə-neçə ağır müharibəyə qatılır. Hər qarış torpaq uğrunda əzmlə döyüşür. Düşmən onun zərbini görüb, itki verə-verə silah-sursatını qoyub qaçmağa başlayır..

Müharibə qansız olmur. Vüsal Füzulinin azadlığı uğrunda düşmənlə son nəfəsinə qədər fədakarlıqla vuruşur. Özü şəhid olsa da, yağıya vurduğu amansız zərbələr nəticəsində Azərbaycanın üçrəngli qələbə bayrağı burada dalğalanır. Göstərdiyi bu rəşadət Astara elinin qəhrəman oğlunu ölməzliyə qovuşdurur. İndi onun adı bütün Vətən üçün əzizdir. Gələcək nəsillərdə Vüsalın ömür yolunu özlərinə örnək biləcəklər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Müharibədə ölən uşaqların sayı açıqlandı

***Rusiya ordusu Ukraynada 440 uşağın həyatına son qoyub.***



"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğu məlumat yayıb.

"Rusiya Federasiyasının 9 aylıq genişmiqyaslı silahlı hücumu zamanı Ukraynada 1287-dən çox uşaq xəsarət alıb.Noyabrın 24-də səhər saatlarına olan məlumata görə, 440 uşaq ölüb, 847-dən çoxu müxtəlif dərəcəli bədən xəsarətləri alıb", - məlumatda deyilir.



# "Ukraynada münaqişə onilliklərlə davam edə bilər" - Çavuşoğlu

***"Ukraynada vəziyyət onilliklərlə davam edə bilər". "Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada universitetlərindən birində çıxışı zamanı deyib.***

Türkiyənin xarici siyasəti mövzusunda danışan Çavuşoğlu, "Bizim fikrimizcə, Rusiya ilə Ukrayna arasındakı müharibə döyüş meydanında uğur qazanmaqla deyil, danışıqlar masası arxasında bitəcək", - deyə izah edib. Onun sözlərinə görə,tərəflər Rusiya və Ukrayna xarici işlər nazirlərinin Antalya görüşünün, habelə Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda keçirilən görüşünün nəticələri əsasında atəşkəslə bağlı razılığa gəlməyə yaxındırlar. Lakin sonra tərəflər dialoqdan imtina ediblər. "İndiki şərait mart ayının şərtlərindən ciddi şəkildə fərqlənir. Yeni reallıqlar ortaya çıxır. Vəziyyət daha mürəkkəbdir, lakin ümidini itirmək olmaz", - nazir deyib.

*Gülayə Mecid*

# Rusiyanın 85 mindən çox hərbçisi məhv edildi

***Ukrayna müharibənin 274-cü günü üçün Rusiya ordusunun itkiləri haqda məlumatı yeniləyib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Qərargahı məlumat yayıb. Bildirilib ki, Rusiya indiyə qədər 85 720 hərbçi, 2 898 ədəd tank, 5 839 ədəd zirehli döyüş maşını, 1889 ədəd artilleriya sistemi, 395 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 209 hava hücumundan müdafiə sistemi, 278 ədəd hərbi təyyarə, 261 ədəd helikopter, 4400 ədəd avtomobil texnikası, 1547 ədəd PUA, 531 qanadlı raket, 16 gəmi/qayıq, 161 xüsusi avadanlıq itirib.

# Papa Stalinlə Putini müqayisə etdi

***Roma Papası Fransisk 1930-cu illərin əvvəllərində Ukraynada Stalinin süni şəkildə yaratdığı aclıq qurbanlarını xatırlamağa çağırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Papa Ukraynaya edilən hücumları Qolodomor zamanı baş verən soyqırımla müqayisə edib:

"Gəlin, bu soyqırımın qurbanları üçün dua edək. Eyni zamanda, bu gün təcavüzdən əziyyət çəkən bütün ukraynalılar, uşaqlar, qadınlar, qocalar üçün də dua edək".

# FTX "Cənub axını" kəmərində terror aktının qarşısını aldı

***Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) "Cənub axını" qaz kəmərində Ukrayna xüsusi xidmət orqanlarının terror aktının qarşısını alıb.***

"Unikal" gazeta.ru-ya xəbər verir ki, bu barədə Rusiya FTX-nin İctimaiyyətlə Əlaqələr Mərkəzi məlumat yayıb. Bildirilib ki, terror aktının hazırlanmasında iştirak edən Rusiya Federasiyasının vətəndaşları saxlanılıb.


**ELAN**

Mirzəyev Ramin Nazim oğluna Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə kredit ixtisası üzrə 2007-ci ildə verilmiş diplom itdiyi üçün etibarsız sayılır.


# Çin Ukraynanı və Rusiyanı danışıqlara çağırdı

***Rusiya Federasiyasının Ukraynanın dinc şəhərlərinə növbəti kütləvi raket hücumundan sonra Çin tərəfləri müharibənin "eskalasiyasının qarşısını almaq" və nüvə böhranının qarşısını almaq üçün mümkün qədər tez sülh danışıqlarına başlamağa çağırıb.***

"Unikal" xəbər verir ki, bunu Çin Xalq Respublikasının BMT-dəki daimi nümayəndəsinin müavini Qenq Şuanq BMT Təhlükəsizlik Şurasının iclasında çıxış edib.

"Dialoq və danışıqlar yeganə irəliyə doğru yoldur. Tərəflər birbaşa qarşılıqlı fəaliyyətə başlamalı, mümkün qədər tez diplomatik danışıqlara qayıtmalıdırlar".

O, gərginliyin qarşısını almaq və nüvə böhranının qarşısını almaq üçün beynəlxalq ictimaiyyətin buna töhfə verməli olduğunu vurğulayıb.



"Biz bir daha tərəfləri təmkinli olmağa çağırırıq ki, onların hərəkətləri qarşıdurmanı gücləndirməsin, həmçinin bu qarşıdurmanın nəzarətdən çıxmasının qarşısını alsınlar", - Çin Xalq Respublikasının nümayəndəsi bildirib.

Qeyd edək ki, Volodimir Zelenski BMT Təhlükəsizlik Şurasının fövqəladə iclasında çıxış edib. Ukrayna prezidenti rusların törətdiyi son cinayətləri, o cümlədən Zaporojyedə doğum evinin atəşə tutulmasını və körpənin ölməsini xatırladıb. Buna görə də o , tərəfdaşları səmanı qorumaq üçün Ukraynaya daha da çox hava hücumundan müdafiə sistemləri verməyə çağırıb.

Xatırladaq ki, noyabrın 23-də raket hücumu nəticəsində Ukraynanın enerji infrastrukturunun obyektlərinə ziyan dəyib. Fövqəladə elektrik enerjisi kəsilib.

# "Ermənistan sentyabrdakı toqquşmalardan kifayət qədər zərər çəkib" - Paşinyan



***Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanın KTMT ölkələrini münaqişəyə cəlb etməyə çalışması ilə bağlı şərhləri manipulyasiya adlandırıb.***

"Unikal" xəbər verir ki, Paşinyan Ermənistanın KTMT ölkələrini Azərbaycanla müharibəyə cəlb etməyə çalışması ilə bağlı şərhlərə cavab verib. "Bu, sırf manipulyasiyadır, çünki Ermənistan müharibədə maraqlı ola bilməz. Yalnız ona görə ki, müharibələrdən, o cümlədən bu ilin sentyabrındakı toqquşmalardan kifayət qədər zərər çəkib", - deyə Paşinyan çərşənbə günü KTMT-yə üzv ölkələrin dövlət başçılarının sammitindəki yekun nitqində bildirib.

# Xameneinin bacısı qızı həbs edildi

***İran İslam Respublikasının rəhbəri Əli Xameneyinin bacısı qızı, hüquq müdafiəçisi Fəridə Muradxani noyabrın 23-də həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Azad İran" teleqram" kanalı məlumat yayıb.

Siyasi fəalın qardaşı Mahmud Muradxani bu barədə tvit yazaraq bildirib ki, bacısı noyabrın 23-də məhkəmə qərarını ona çatdırmaq üçün prokurorluğa gedərkən tutularaq həbsə atılıb.



Qeyd edək ki, vətəndaş cəmiyyəti fəalı olan xanım Muradxani bu il yanvarın 13-də Tehranda evinə qayıdarkən ETTELAAT Nazirliyi tərəfindən həbs edilib. May ayında 10 milyard tümən girov qarşılığında və istintaq müddəti başa çatanadək Tehran vilayətini tərk etmək məhdudiyyəti ilə müvəqqəti azadlığa buraxılıb.

Fəridə Muradxani həbsindən bir neçə ay əvvəl məhbuslara dəstək kampaniyasına start verib.

# "Onlar qorxmuş it kimidirlər" - Kimin bacısından reaksiya

***Şimali Koreya lideri Kim Çen Inın bacısı Kim Yo Conq son raket sınaqlarının pislənməsindən sonra ABŞ-a sərt reaksiya verib.***

"Unikal" CNN-ə istinadən xəbər verir ki, Kim Yo Conq Şimali Koreyanın "Rodong" qəzeti üçün yazdığı məqalədə ABŞ-ı qorxmuş hürən itlə müqayisə edib.

Şimali Koreya liderinin bacısı Kim Yo Conq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının (BMT TŞ) qətnamələrinə uyğun olaraq keçən cümə günü ABŞ və Böyük Britaniyanın qitələrarası ballistik raket (ICBM) buraxılışını "qətiyyətlə pisləyib".

Şimali Koreya bu il səkkizinci ICBM sınağını keçirib. Onların beş ildən sonra ilk nüvə sınağını keçirəcəkləri ilə bağlı şayiələr artır.

Şimali Koreyanın artan raket sınaqları və nüvə silahı inkişaf etdirmə təşəbbüsləri BMT Təhlükəsizlik Şurasında reaksiyalara səbəb olsa da, Rusiya və Çinin etirazları səbəbilə hələlik rəsmi açıqlama verilməyib. Şimali Koreyanın raket inkişaf proqramlarının gizli şəkildə Rusiya və Çinlə əməkdaşlıq etdiyi iddia edilir.

Çinin BMT-dəki səfiri deyib ki, BMT Təhlükəsizlik Şurası "bu məsələdə konstruktiv rol oynamalı və həmişə Şimali Koreyanı qınamamalı və ona təzyiq etməməlidir".



# PKK-nın yüksək rütbəli nümayəndəsi məhv edildi

***Türkiyənin Suriya və İraqdakı terror təşkilatlarına qarşı hava əməliyyatı davam edir.***

"Unikal" xəbər verir ki, Türkiyə SİHA-ları Kamışlıda uğurlu əməliyyat keçirib. Bildirilir ki, əməliyyat zamanı PKK-nın yüksək rütbəli nümayəndəsi Rezan Gelo adlı terrorçu zərərsizləşdirilib.

*Samirə Bəhramova*

# Messi və komandasının daha bir qurbanı

***DÇ-2022-yə uğursuz başlayan Argentina milli komandasının daha bir proqnozsevəri məyus etdiyi üzə çıxıb.***

Apasport.az saytının məlumatına görə, mərc həvəskarlarından biri cənubi amerikalıların Səudiyyə Ərəbistanı üzərində qələbəsinə 89 min funt sterlinq qoyub.

Həmin vaxt Lionel Messi və komandasının qalib gəlmək əmsalı 1,17-yə bərabər olub. 101 min uduş əldə etmək ehtimalı olan better cəmi 12 min qazanc üçün riskə gedib.

Amma Messinin hesabı açdığı oyunda asiyalılar əzmkar qələbəyə sevinib - 2:1. Bununla da aşağı əmsala risk özünü doğrultmayıb.



Qeyd edək ki, bu sensasiyadan daha iki proqnozsevərin böyük məbləğ uduzduğu daha öncə bəlli olmuşdu. Onlardan biri Argentinanın 1,13 əmsallıq qələbəsi üçün 160, digəri 1,70 əmsallıq -2,5 foralı qələbəsi üçün 100 min dollarından keçib.



# Fransa Liqa 1-də baş məşqçi istefası

***"Anje" baş məşqçisi Jeral Batiklı istefaya göndərib.***

Bu barədə klubun saytı məlumat yayıb. Onu müvəqqəti olaraq Abdel Buazama əvəzləyəcək. Klub bütün yarışlarda ardıcıl 8 oyunda uduzub. Fransa Liqa 1-də "Anje" 15 turdan sonra 8 xalla turnir cədvəlinin sonuncu- 20-ci pilləsində qərarlaşıb.

Qeyd edək ki, Batikl 2021-ci ilin mayından klubu çalışdırırdı.

# Kanada millisinin baş məşqçisi: "Rəqiblər bizə hörmət edəcək"

***"Biz ölkəni qürurlandırdıq. Oyunçularım bu matçda niyə burada olduğumuzu göstərdilər. Azarkeşlərimiz də inanılmaz idi. Biz futbol xalqı olduğumuzu gördük. Məqsəd qorxmadan oynamaq və ilk qol vurmaq idi. Buna nail ola bilmədik, amma oyunçularımla həqiqətən fəxr edirəm. Uğura inanmağa davam etməliyik".***

Qol.az xəbər verir ki, bu sözləri Kanada millisinin baş məşqçisi Con Herdman DÇ-2022-nin qrup mərhələsinin 1-ci turunda Belçikaya 0:1 hesabı ilə



uduzduqları matçı şərh edərkən deyib.

O, komandasının penalti epizodundan yararlana bilməməsi haqda da danışıb: "Bütün ölkənin qol gözlədiyi bir vaxtda Alfonso Devis penaltini yerinə yetirdi. Hesab açmağa yaxın idik, amma bizim günümüz deyildi. Tibo Kurtua yaxşı qapıçıdır. Şanslarımız oldu, amma rəqibin qapısında "Real"ın qolkiperi var idi... Şikayət edə bilmərəm. İndi bu qarşılaşmanı geridə qoymalı, ondan dərs çıxarmalı və müsbət cəhətləri vurğulamalıyıq. Qarşıda bizi Xorvatiya ilə vacib oyun gözləyir. Gələcək rəqiblər bizə hörmət edəcək, mən buna əminəm".

Xatırladaq ki, A.Devisin 11-ci dəqiqədə penalti zərbəsini qapıçı Tibo Kurtua dəf edib.



# Kubokda 30-cu qələbə

***"Kəpəz" Azərbaycan kubokunda 30-cu ev qələbəsini qazanıb.***

Qol.az PFL-in saytına istinadən xəbər verir ki, Gəncə təmsilçisi 1/8 finalda "Sumqayıt"a 1:0 hesabı ilə qalib gəlib.

Qərblilər bunadək kubokda keçirdiyi 47 ev matçında 29 dəfə qələbə sevinci yaşamışdı. 30-cu uğuru 48-ci matça təsadüf edən qərblilər 6 heç-heçə edib və 12 dəfə uduzub.

"Kəpəz" Azərbaycan Kubokunun ev oyunlarında 30 və daha çox qələbəsi olan 4-cü komandadır. Yalnız "Qarabağ", "Neftçi" və "Şamaxı" doğma divarlar arasında daha çox görüşdə qalib olub.

# FIFA Almaniya millisi barədə qərarını verdi

***FIFA Almaniya millisini dünya çempionatının I turunda Yaponiya ilə oyundan əvvəl etdiyi hərəkətə görə cəzalandırmayacaq.***

Asiya təmsilçisinin 2:1 hesabı ilə qalib gəldiyi matçdan əvvəl alman futbolçular kollektiv fotoda əlləri ilə ağızlarını bağlayıblar.

Onlar bunu FIFA-nın "OneLove" kapitan sarğılarını qadağan etməsinə etiraz əlaməti olaraq ediblər. Bundestimin kapitanı Manuel Noyer də məsələyə münasibət bildirib: "FIFA sarğımızı ala bilər, amma bizi heç vaxt susdurmayacaqlar. Öz dəyərlərimizi və insan haqlarımızı müdafiə edirik".

Almaniya Futbol İttifaqı isə oyunçularını müdafiə edib: "Bizim üçün sarğıdan imtina etmək səsdən imtina etmək kimidir. İnsan hüquqları müzakirə edilə bilməz".

Qeyd edək ki, Almaniya yığması E qrupunda növbəti oyu-



nunu noyabrın 27-də İspaniyaya qarşı keçirəcək.

# "Sabah"da ilk və rekord

***"Sabah2ın futbolçusu Emanuel Apeh klubun tarixinə düşüb.***

O, Bakı klubunun heyətində het-trik edən ilk futbolçu olub. 2017-ci ilin yayından peşəkar səviyyədə çıxış edən klubun üzvləri indiyədək 1-ci Divizion, Azərbaycan Kuboku və Premyer Liqada keçirilən görüşlərin heç birində het-trik etməyib.



Emanuel Azərbaycan kubokunda fərqlənib. O, 1/8 finalın "Qaradağ Lökbatan"la görüşündə vurduğu 3 qolla 5:0 hesablı qələbədə pay sahibi olub.

Bu, "Sabah"ın tarixində ən böyükhesablı qalibiyyət rekordunun təkrarıdır. Bakılılar 5-ci dəfə beş top fərqi ilə qalib gəlib. Paytaxt təmsilçisi 1-ci Divizionda oynadığı 2017/18 mövsümündə "Zaqatala" və "Binə"ni, Azərbaycan Kubokunun 2019/20 mövsümündə "Ağsu"nu, Premyer Liqanın cari mövsümündə "Kəpəz"i 5:0 hesabı ilə məğlub edib.



***Belçika millisinin baş məşqçisi Roberto Martinez DÇ-2022-nin ilk turunda Kanadaya 1:0 hesabı ilə qalib gəldikləri matç barədə danışıb.***

# Roberto Martinez: "Qələbəyə layiq idik"

Qol.az "Reuters"ə istinadən xəbər verir ki, mütəxəssis deyib: "Bu, texniki olaraq ən pis performansımız idi? Bəli. Bəs, ən pis oyunumuz idi? Xeyr. Çünki bu, Dünya kubokunun qələbəsidir. Oyunumuzun əks tərəfini göstərməli və çox yaxşı müdafiə olunmalı idik. Çox gözəl qol vurduq. Kanadaya millisi yaxşı oynadı. Amma biz qalib gəlməyə layiqik.

Özümüzə tənqidi yanaşmalı və inkişaf etməliyik. Ancaq üç xalınız olduqda bunu etmək daha yaxşıdır, xüsusən də baş verənləri gördükdən sonra".

Qeyd edək ki, Belçika hazırda Xorvatiya və Mərakeşi də qabaqlayaraq 3 xalla qrupa iderlik edir.